

Milli azadlıqdan şirin nemət yoxdur!




# İkinci Qızıl Qələbə!

## Azərbaycan həmişə qazanacaq!



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
03 avqust 2024-cü il, şənbə
№ 138 (6724)
Qiyməti 60 qəpik



# Sülhə qarşı sabotaj

## 30 il işğalçını adıyla çağırmayanlar ənənəvi qiyafədə...

Bax səh. 3

# Növbəti sosial qayğı

Bax səh. 4




## Azərbaycan Avropaya qaz nəqlini artırır

Bax səh. 4

## Təhlükəsiz Cənubi Qafqaz qurmaq üçün 5 məqam...

Bax səh. 3



## Suverenliyimizin bərpasına gedən yolda "Qisas"...

Bax səh. 2

## Dövlətçilik atributlarımızın yeni nişanəsi

Mərkəzi Bank (MB) Azərbaycanın milli valyutası olan manatın yeni nişanlarının hazırlanmasına başlamaq niyyətindədir. Yeni nəsil pul nişanlarının emissiyasında əsas kompozisiya kimi milli elementlərə yer verilməsi nəzərdə tutulur. Belə ki, yeni əskinaslarda və banknotlarda milli dəyərlərimizi, tarixi və mədəni irsimizi özündə daşıyan, habelə müasir milli prioritetlərə və çağırışlara uyğunluğunu təmin edən elementlərə xüsusi yer veriləcək. Bu məqsədlə ictimaiyyətin nümayəndələrinin fikir və rəylərinin, təkliflərinin öyrənilməsi üçün onlara sorğu platforması yaradılıb. Vətəndaşlar bu platformada iştirak edərək öz təkliflərini MB ilə bölüşmək imkanı əldə edəcəklər. Beləliklə, ölkə ictimaiyyəti və MB-nın birgə səmərəli əməkdaşlıq modeli əsasında milli valyutamızın tarixilik, ənənəyə bağlılıq və gələcəyə baxış harmoniyası əsasında milli mənsubiyyətimizi əks etdirən yeni valyuta təsviri...

Bax səh. 4

## Biznes üçün yeni imkanlar

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi Rəqəmsal Məcəllə layihəsini yaxın vaxtlarda yekunlaşdıracaq. Məcəllə ölkədə rəqəmsal sahədə hüquqi tənzimlənməni, müxtəlif inkişaf konsepsiyalarının idarə olunmasına nəzarəti, süni intellekt strategiyasının və "Elektron hökumət" infrastrukturlarının işinin koordinasiya olunmasını və digər qanunvericilik məsələlərini özündə əks etdirəcək. Bu baxımdan sənədin beynəlxalq məsləhətçi şirkət cəlb etməklə, rəqəmsal inkişaf sahəsində beynəlxalq və ölkədaxili təcrübəyə əsaslanmaqla, rəqəmsallaşma və elektron hökumət üzrə beynəlxalq reytinqlərdə ilk 10-luqda olan ölkələrin təcrübəsinə və qanunvericiliyinə uyğun hazırlanması nəzərdə tutulur.

Rəqəmsallaşma müasir dövrümüzün dinamik sürətlə inkişaf edən və bu və ya digər formada milli iqtisadiyyatlara və cəmiyyətlərə öz təsirini göstərən ayrılmaz prosesinə çevrilib. Son illər ərzində ölkəmizdə "Elektron hökumət"in formalaşması, dövlət orqanlarının...

Bax səh. 5

## Eks-prokuror canilərə azadlıq istəyir...

İşğalçı Ermənistanın və bu ölkənin xaricdəki havadarlarının respublikamıza qarşı qərəzlə yoğrulmuş koordinasiyalı fəaliyyətlərini müxtəlif qarayaxma kampaniyaları üzərindən həyata keçirmələri artıq bir ənənə halını alıb. Belə qarayayaxma kampaniyalarına bir qayda olaraq mühüm beynəlxalq tədbirlər ərəfəsində start verilir. Bununla ermənilər və onların xaricdəki Luis Okampo kimi havadarları daha çox "populyarlıq" və "beynəlxalq dəstək" qazanmağa cəhdlər göstərirlər. Təbii ki, belə çəhdlər uğursuzluqla nəticələnir. Çünki qaragurühun təbliğat reallığı əks etdirmir, cəfəng erməni iddiaları üzərində qurulur.

Hər zaman dünyanın gələcəyi naminə xoş məramdan çıxış edən və qlobal həmrəyliyin gücləndirilməsinə davamlı töhfələr verən Azərbaycan cari ilin noyabrında COP29 konfransına ev sahibliyi edəcək. Hazırda çox aktual olan iqlim çağırışlarının müzakirə olunacağı bu konfrans BMT-nin ən mühüm tədbirlərindən biridir. Tədbirə çoxsaylı qonaqlar, o cümlədən də ayrı-ayrı ölkələrin dövlət və hökumət başçıları...

Bax səh. 5

## Yadplanetlilərlə niyə əlaqə qurmalıyıq?

Təxminən 70 il bundan əvvəl italyan əsilli amerikalı asrtofizik, sonralar Nobel mükafatı laureatına layiq görülmüş Enriko Fermi bir gecə səmaya baxaraq belə bir sual verir: "Bəs onlar haradadırlar?"

Əlbəttə, Fermi yadplanetliləri nəzərdə tuturdu. Alim bu mövzunu üç həmkarı ilə birgə qəhvə masası arxasında müzakirə edirdi. Məlumdur ki, kainatda milyardlarla ulduz var. NASA ən son texnoloji vasitələrlə Günəş sisteminə yaxın bütün ulduzları izləyir. Hələlik qalaktikamızda Yer planetindən başqa inkişaf etmiş həyatın əlamətləri tapılmayıb. Lakin bizim indiyədək yaxın ulduzlarda həyat əlaməti aşkar etməməyimiz başqa ulduz sistemlərində, yaxud daha uzaq ulduzlarda hər hansı canlı orqanizmin mövcud olmaması demək deyil.

Tanınmış astrofiziklər belə söyləyirlər.

"Doğrudanmı "Homo sapiens" kainatda texnoloji baxımdan inkişaf etmiş yeganə sivilizasiyadır?" - deyə Enriko Fermi ağlabatan bir sual verir. Dostları dərhal cavab verirlər ki, Yer unikal planetdir, çox güman, kainatda həyat...

Bax səh. 7

## Menendez getdi, Kardin gəldi...




Bax səh. 6

# Könhə ssenari təkrarlanır...

Bax səh. 7

# İkinci Qızıl Qələbə!

## Azərbaycan həmişə qazanacaq!



Bu günlərdə bütün dünyanın nəzərləri 33-cü Yay Olimpiya Oyunlarının keçirildiyi Parisə dikilib. İdmançıları Oyunlarda iştirak edən 184 ölkədə Fransa paytaxtından səbirsizliklə, böyük həyəcanla qələbə soraqları gözlənilir. Candan əziz tutduğumuz Azərbaycanımıza nə xoş ki, artıq “Paris-2024”-də ölkəmizin adına ikinci qızıl medal əldə olunub.

Olimpiadada komandamızın ilk qızıl medalını 73 kiloqram çəki dərəcəsində mübarizə aparan cüdoçumuz Hidayət Heydərov qazanıb. İkinci qızıl medalımız isə avqustun 1-də cüdoçu Zelim Kotsoyevdən gəldi. 100 kiloqram çəki dərəcəsində mübarizə aparan Avropa və dünya çempionumuz qızıl medal uğrunda qarşılaşmada gürcüstanlı İlya Sulamanidze ilə üz-üzə gəlib. Rəqibinə ipponla qalib gələn idmançımız Olimpiya çempionu olub.

Parisdə fəxri kürsünün ən yüksək pilləsinə qalxan idmançımıza qızıl medal təqdim olunub. Olimpiya çempionumuzun şərəfinə Azərbaycanın Dövlət Himni səsləndirilib.

## Bakıdan gecikməyən zənglər, təbriklər

Bu dəfə də “Paris-2024”-də idmançımızın möhtəşəm qələbəsinə bütün Azərbaycan sevindi. Bu dəfə də Fransanın paytaxtını fəth edən cüdoçumuza Bakıdan, şəxsən Prezident İlham Əliyevdən və birinci vitse-prezident Mehriban xanım Əliyevadan təbriklər gecikmədi. Bu müjdəni bütün Azərbaycan gözləyirdi və qələbə sevincindən də hər kəsə pay düşür.

Azərbaycan Prezidentinin mötəbər beynəlxalq çempionatlarda fəxri kürsünün ən yüksək pilləsinə qalxan idmançılarımıza telefon açması və şəxsən təbrik etməsi artıq gözəl bir ənənəyə çevrilib. Ənənə bu dəfə də pozulmadı. Avqustun 1-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Paris-2024” XXXIII Yay Olimpiya Oyunlarında Olimpiya çempionu olmuş azərbaycanlı cüdoçu Zelim Kotsoyevə zəng ediblər.

Prezident İlham Əliyev və birinci xanım Olimpiadanın qızıl medalını qazanması münasibətilə Zelim Kotsoyevi təbrik edib, ona gələcəkdə də yeni uğurlar arzulayıblar. Dövlətimizin başçısı Azərbaycan idmançılarının Olimpiya Oyunlarında cüdo idman növü üzrə ilk dəfə iki Olimpiya qızıl medalını qazandıqlarını qeyd edərək, bu münasibətlə təbriklərini eyni zamanda komandanın məşqçilərinə və Cüdo Federasiyasının rəhbərliyinə çatdırıb.

Telefon zənginə və səmimi təbriklərə görə dövlətimizin başçısına və birinci xanıma minnətdarlığını bildirən Zelim Kotsoyev öz qələbəsi ilə Azərbaycan Bayrağını ucaltmaqdan və Himnimizi səsləndirməkdən fəxr hissi keçirdiyini deyib. O, yeni qələbələr qazanmaq üçün bundan sonra da bütün səylərini əsirgəməyəcəyini vurğulayıb.




Öz növbəsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Zelim Kotsoyevin Olimpiya çempionu olması ilə bağlı paylaşım edib. Paylaşımda deyilir: “Cüdoçu Zelim Kotsoyev Paris Yay Olimpiya Oyunlarında Azərbaycana növbəti - 2-ci qızıl medalı qazandırdı! İdmançımızı səmimi-qəlbdən təbrik edir, ona güc, enerji, yeni-yeni nailiyyətlər və qələbələr arzulayıram!”.

Son illərdə respublikamızda idmanın ayrı-ayrı sahələri sürətlə inkişaf edir. Bu sırada cüdo da yer alır. Təsadüfi deyildir ki, “Paris-2024”-də Azərvaycanı 9 cüdoçu təmsil edir. Bütövlükdə komandamızın heyətində 48 idmanşı yer alır. Sıralama isə belədir: Güləşdə 12 (sərbəst - 6, yunan-Roma - 5, qadın - 1), cüdoda 9, gimnastikada 7 (bədii - 6, batut - 1), boksda 5, basketbolda 4, badmintonda və üzgüçülükdə 2 idmançımız Fransa paytaxtına yollanıb. Xatırladaq ki, cüdo komandamız olimpiadalarda bundan əvvəlki qızıl medalı Elnur Məmmədli ilə “Pekin-2008”-də qazanmışdı. Düz 16 ildən sonra həmin uğuru “Paris-2024”-də əvvəlcə Hidayət Heydərov, onun ardınca isə Zelim Kotsoyev təkrarladılar. Necə deyərlər, davamı gəlsin!

Böyük Britaniyanın Azərbaycandakı səfiri Fergus Auld “Paris-2024” Yay Olimpiya Oyunlarında qızıl medal qazanan Azərbaycan cüdoçusu Zelim Kotsoyevin performansını möhtəşəm adlandırıb. Səfir bu barədə özünün “X” sosial şəbəkə hesabında yazıb. “Cüdoçu Zelim Kotsoyev möhtəşəm performansı ilə Azərbaycanın medal hesabına ikinci qızılı əlavə etdi. Azərbaycanlı cüdoçular Parisdə xarüqələr yaradırlar”, - deyə səfir vurğulayıb.

## “Azərbaycan Olimpiya Evi” Parisdə xarüqələr yaradan cüdo çempionlarını qarşılayıb

Bu günlərdə XXXIII Yay Olimpiya Oyunları çərçivəsində Parisdə fəaliyyət göstərən “Azərbaycan Olimpiya Evi”ndə ölkəmizi sevənlər və idmançılarımızı dəstəkləyən müxtəlif xalqların, beynəlxalq təşkilatların nümayəndələri ilə Azərbaycan cüdo çempionlarımızla görüş təşkil olunub. Tədbirdə Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Cüdo Federasiyasının prezidenti, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, idman nazirinin müavini Mariana Vasileva, Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) Baş katibi Azər Əliyev, MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, Fransadakı səfirimiz Leyla Abdullayeva, UNESCO yanında daimi nümayəndə Elman Abdullayev, Olimpiya və dünya çempionları, bir çox beynəlxalq təşkilatın, müxtəlif ölkələrin rəsmi nümayəndələri, “Paris-2024” Oyunlarında ölkəmizi təmsil edən idmançılar və onların məşqçiləri, yerli ictimaiyyətin və Azərbaycan diasporunun nümayəndələri, jurnalistlər iştirak ediblər.

Tədbir iştirakçıları XXXIII Yay Olimpiya Oyunlarının çempionları - cüdoçularımız Hidayət Heydərov və Zelim Kotsoyevi böyük sevinc və alqışlarla qarşılayıblar. Onlar çempionlarımızı qələbələri münasibətilə təbrik ediblər.

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva çempionlarımızı təbrik edərək qarşıdan gələn günlərdə daha çox çempionlarımız olacağına inandığını bildirib.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə bu gün Azərbaycan Olimpiya Hərəkatında ən əlamətdar gün olduğunu qeyd edib. “Azərbaycan cüdo üzrə ilk dəfədir ki, 2 qızıl medal qazanıb. Ölkəmizin cüdo üzrə 73 kq və 100 kq çəki dərəcələrində həmişə qalib gəlməsi də əlamətdar hadisədir. Əminik ki, bu çəki dərəcələrində Azərbaycan həmişə qızıl medal qazanacaq”, - deyə MOK-un vitse-prezidenti bu çəki dərəcələrinin cüdoçularımız üçün düşərli olduğunu vurğulayıb.

## Davamlı dövlət qayğısının real nəticələri

Hazırda müstəqil Azərbaycan bütün dünyaya nümunəvi inkişaf modeli təqdim edir. Ölkəmiz müxtəlif istiqamətlərdə böyük uğurlar qazanır. Şübhəsiz ki, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunması müstəqillik və bütövlükdə son 200 illik tariximizin ən böyük nailiyyətidir.

Həmçinin son illərdə idman sahəsində qazanılan qələbələr uğurlarımızı tamamlayır. Davamlı dövlət qayğısı sayəsində Azərbaycanın idman ölkəsinə çevrilməsi bütün dünyada qəbul olunur. Bunun nəticəsidir ki, beynəlxalq idman ictimaiyyəti Birinci Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının və digər mötəbər çempionatların ev sahibliyi hüququnu respublikamıza həvalə edib. Vurğulamaq yerinə düşər ki, hazırda ölkəmiz idman infrastrukturu təminatı baxımından dünyanın inkişaf etmiş ölkələrindən geri qalmır. Son 20 ildə Prezident İlham Əliyevin göstərişləri əsasında paytaxt Bakıda və regionlarda 50-dək müasir Olimpiya İdman Kompleksi tikilərək istifadəyə verilib. Ölkəmizin uğurla ev sahibliyi etdiyi Birinci Avropa Oyunlarına hazırlıq çərçivəsində Təşkilat Komitəsinin rəhbəri Mehriban xanım Əliyevanın böyük əməyi sayəsində həyata keçirilən layihələr respublikamızın idman infrastrukturunu əhəmiyyətli dərəcədə zənginləşdirib.

Ölkəmizin hər yerində yeniyetmələr, gənclər yaradılan idman obyektlərində məşqlər edir və böyük idmana doğru irəliləyirlər. İdmançılarımız mötəbər beynəılxalq yarışlarda Azərbaycan adına qazandıqları medalların sayını ilbəil artırırlar. Bu cəhətdən 2023-cü il də istisna olmayıb. Ötən il idmançılarımız Avropa və dünya çempionatlarında, kubok yarışlarında, digər rəsmi beynəlxalq turnirlərdə 1472 medal qazanıblar. Bu, idman tariximizdə rekord göstəricidir. Bunun 799-u (214 qızıl, 208 gümüş, 377 bürünc) Olimpiya, 587-si (223 qızıl, 159 gümüş, 205 bürünc) qeyri-Olimpiya, 86-sı (27 qızıl, 31 gümüş, 28 bürünc) paralimpiya proqramının payına düşür.

***Mübariz ABDULLAYEV***

# Suverenliyimizin bərpasına gedən yolda “Qisas”...

## Əməliyyatdan iki il ötür

2020-ci ildə baş verən Vətən müharibəsi 30 ilə yaxın davam etmiş işğal prosesinə son qoymaqla yanaşı, iki dövlət arasında münasibətlərin yeni məcrada inkişafı üçün zəmin yaratmışdı. 2022-ci ilin martından etibarən Azərbaycanın irəli sürdüyü, beynəlxalq hüquqa və ədalətə əsaslanan sülh şərtləri bunun üçün müstəvi rolunu oynaya bilərdi - 10 noyabr razılaşmasının müddəalarını yerinə yetirməkdən boyun qaçıran Ermənistan sonrakı mərhələdə özünün qeyri-adekvat davranışlarını davam etdirdi. 2022-ci ilin yayında beynəlxalq çağırışlara fikir verməyən, imzaladığı üçtərəfli bəyanatın müddəalarına xilaf çıxan Ermənsitan paralel olaraq özünün hərbi təxribatlarından da əl çəkmirdi. Həmin il ərzində ard-arda əl atdığı hərbi təxribatlar layiqincə cavablandırılırdı...

### Avqustun 3-də...

2022-ci ilin iyul ayının sonlarından etibarən isə bu hərbi təxribatlar daha da intensivləşdi - o dövrdə Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarını kobud surətdə pozaraq Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törətdi. Avqustun 3-də terror-təxribat nəticəsində hərbi qulluqçumuz əsgər Kazımov Anar Rüstəm oğlu şəhid olub. Bundan əlavə, qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərdi.



### Uğurlu əməliyyat

Beləliklə, Azərbaycanın sülhpərvər çağırışlarına layiqli şəkildə cavab verməyən Ermənistanın əl atdığı bu təxribatlar bumeranq kimi rəsmi İrəvanın özünə qayıtdı - Azərbaycan Ordusu bölmələrinin keçirdiyi “Qisas” cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ sisteminin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər nəzarətə götürüldü. Əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdıldı, keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirildi. Nəticədə, qanunsuz erməni silahlılarının canlı qüvvəsi məhv edildi. Həmçinin bir neçə D-30 haubitsası, hərbi nəqliyyat vasitələri və çoxlu sayda döyüş sursatları məhv edildi.

Vurğulandığı kimi, Qisas əməliyyatına qədər Azərbaycan dövləti dəfələrlə Ermənistanı bu kimi hərbi təxribatlardan çəkinməyə çağırmışdı - dəfələrlə bildirilmişdi ki, üçtərəfli bəyanata zidd olaraq Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni silahlı birləşmələrinin Rusiya Federasiyası sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində mövcudluğu təhlükə mənbəyi olaraq qalır. Azərbaycan bəyan etdi ki, bundan sonra ölkəmizin suveren ərazilərində törədiləcək istənilən terror və təxribatın qarşısı qətiyyətlə alınacaq və əks cavab tədbirləri daha da sarsıdıcı olacaq...



### Ermənistan üçün sülh yolu...

Qisas əməliyyatı Ermənitan üçün bir xəbərdarlıq idi - bundan nümunə götürməli olan İrəvan hakimiyyəti isə özünün qeyri-konstruktiv mövqeyini yenə də davam etdirdi. Sülh prosesində Azərbaycanın qəbul etməsinin mümkün olmadığı müddəalarla çıxış edən, prosesi pozmaq üçün min bir yola əl atan Ermənistan isə özünün ənənəvi mövqeyini davam etdirdi və beynəlxalq hüquqa əməl etməkdən boyun qaçırdı. Nəticədə isə Azərbaycan özünün suverenliyini təmin etmək üçün anrtiterror tədbirləri keçirdi - 2022-ci ilin avqust ayında keçirilən Qisas əməliyyatı bir il sonra sentyabrda baş tutan və separatizmin sonuna yol açacaq tədbirləri reallaşdırdı.

Məhz bu əməliyyatlar - “Qisas” və antiterror tədbirləri sülh prosesində yeni situasiya formalaşdırdı. Suverenliyimiz bərpa edildi. Bu gün Azərbaycan yenə də özünün sülhpərvər mövqeyini ortaya qoyur və bölgədə stabilliyin formalaşması üçün platforma yaradır. İkitərəfli təmaslar Ermənistanın gələcək dövrü üçün mühüm bir perspektiv formalaşdırıb ki, İrəvan bundan səmərəli şəkildə istifadə etməlidir. Azərbaycanın irəli sürdüyü şərtlər yerinə yetirilməli, Kosntitusiyada dəyişiklik olunmalı, ölkəmizə qarşı əsassız iddialardan əl çəkilməlidir. Bu, Ermənistan üçün sülhün əsas meyarıdır - əks halda, Ermənistan yenə də dalan ölkə olmaqdan xilas ola bilməyəcək...

***SADİQ***

# Sülhə qarşı sabotaj

## 30 il işğalçını adıyla çağırmayanlar ənənəvi qiyafədə...

Post-müharibə dövrünün ən mühüm reallıqlarından biri kimi önə çıxan sülh prosesi mühüm bir coğrafiyanın gələcək siyasi-iqtisadi tənzimlənməsində əsaslı şərtə çevrilib. Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması yönündə iki ildən artıq davam edən prosesin məntiqi nəticəyə yaxınlaşması, ikitərəfli təmaslar nəticəsində müəyyən irəliləyişlərə nail olunması isə hər kəs üçün müsbət dividend yaradır - bu, yeni iqtisadi-siyasi nizamı ortaya çıxarır, Cənubi Qafqazın stabil və sabit məkan kimi şöhrət qazanması, tanınması, qlobal layihələrin bizim coğrafiyada təşəkkül tapması üçün əsasa çevrilir, Ermənistanın sosial-iqtisadi xilasına yol açır, eyni zamanda, beynəlxalq oyunçular üçün yeni yüksək geoiqtisadi effektə malik və təhlükəsiz ticari xəttin ortaya çıxması üçün şərait yaradır. Bu mənada, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində gedən prosesin qlobal miqyasda diqqət mərkəzində olması təbiidir - iki ilə yaxın beynəlxalq vasitəçilərin iştirakı ilə baş tutan və hansısa nəticəyə yol açmayan görüşlərin ardından son 1 ilə yaxın dövrdə məhz ikitərəfli formata əsaslanan təmaslar artıq sülh üçün kifayət qədər böyük ümid yaradıb. Vasitəçisiz davam edən ikitərəfli təmasların verdiyi nəticələr göz önündədir - istər ötən ilin dekabrında bəyan edilmiş ikitərəfli açıqlama və orada əksini tapan müddəalar, istərsə də bu ilin aprelin 19-da əldə edilmiş razılığa əsasən 4 kəndin qaytarılması sülhə olan inamı artırır.

Vurğulandığı kimi, beynəlxalq aləmin əksər aparıcı siyasi aktorları da prosesə maraq göstərir, sülh üçün platforma yaratmağa çalışır. İstər Şərq, istərsə də Qərb dünyası hər bir kiçik nüansı belə nəzərə alır, əldə olunan razılıqların detallarını müzakirə edərək gələcək perspektiv baxımından dəyərləndirir. Təbii ki, Azərbaycanın məsələdəki mövqeyi səmimi və ədalətli olması ilə seçilir ki, bu da yüksək qiymətləndirilir. Ermənistan ilə Azərbaycanın münasibətlərinin normallaşmasının hazırkı qlobal şərtlərin mənzərəsində nələr vəd etdiyi bütün ölkələr üçün aydındır - bu amil xüsusilə yeni dönəmdə Avrasiyanın mərkəzində sülh və təhlükəsizlik seqmentinin gücləndirilməsinə, hətta fərqli siyasi baxışlara malik qütblərin ortaq iqtisadi maraq müstəvisində uzlaşmasına yol açacaq. Təbii ki, Qərb-Şərq tranziti üzərində təhlükəsizliyin ən ali səviyyədə təmin olunması ən çox böyük iqtisadi güclərin marağında olan bir məsələdir.

### İrəvan yenidən ləngidir...

Vurğulandığı kimi, artıq bir ilə yaxındır davam edən ikitərəfli təmaslar müəyyən yolun qət olunmasına imkan yaradıb. Amma son dövrlərdə Ermənistanın yenidən yayınma həvəsində olması, proosesi ləngitməyə çalışması diqqəti cəlb etməkdədir - bu amil beynəlxalq aləmin də gözündən yayınmır. Belə ki, "Politico" nəşri Avropa Şurasının prezidenti Şarl Mişelin Azərbaycan və Ermənistan arasında davamlı sülhün bərqərar olunmasına yönəlmiş səyləri yeniləmək istəyindən yazıb. Nəşrlə danışan iki yüksək səviyyəli diplomat Mişelin bu ayın ortalarında Böyük Britaniyada Avropa Siyasi Birliyinin sammiti çərçivəsində Azərbaycan və Ermənistan liderləri ilə ikitərəfli görüşlər keçirdiyini təsdiqləyib. Bu görüşlər barədə əvvəllər məlumat verilməyib. Mişel həmçinin hər iki tərəfə məktub yazaraq, onları danışıqlar masasına qayıtmağa və sərhədlərin delimitasiyası kimi məsələlərdə irəliləyiş əldə edərək sülh sazişini yekunlaşdırmağa çağırıb.

Nəşr qeyd edir ki, çoxdan gözlənilən razılaşmanın baş tutmadığından və aylarla davam edən diplomatik səylər dalana dirəndikdən sonra Brüsseldə məyusluq artıb. Lakin çoxdan gözlənilən razılaşma baş tutmur və bu, Brüsseldə məyusluq yaradır.

Xatırladaq ki, iyulun 18-də İngiltərədə Azərbaycan və Ermənistan liderlərinin sammit çərçivəsində görüşü gözlənilsə də, Paşinyan dialoqda iştirakdan boyun qaçırıb. İmtina ilə bağlı ən çox yayılmış versiya odur ki, Paşinyan Əliyevlə danışıqlarda Avropa Şurasının prezidenti Şarl Mişel və mümkünsə Fransa prezidenti Emmanuel Makronun iştirakını istəyib. Bu şərtin yerinə yetirilməsinin qeyri-mümkün olduğunu anlayanda isə regional sülh prosesini geriyə atıb.



### Paşinyan yayınır, Qərb görməzdən gəlir

Bəli, mənzərə yenidən aydın şəkildə ortadadır - Ermənistan ikitərəfli təmaslar nəticəsində əldə olunan razılaşmaları davam etdirməkdən yayınır. Yenidən Fransa amili maneə kimi prosesin "önünü kəsir". Halbuki rəsmi Parisin hazırki qeyri-müəyyən halın davam etməsi üçün göstərdiyi səylər hər kəs tərəfindən görünür. Prezident Makronun admisitrasiyası bütün sferalarda Cənubi Qafqazda sülhün reallaşmaması üçün səy göstərir. Ermənistanın qeyri-qanuni şəkildə silahlandırmaqla, Azərbaycana qarşı beynəlxalq səviyyədə antikampaniyalar yaratmaqla sülhlə bağlı ümidləri boşa çıxarmağa çalışır. Paşinyan Makronun təhriki ilə sözün əsl mənasında prosesi sabotaj etməyə çalışır. İkitərəfli təmaslardan boyun qaçırmaqla yanaşı beynəlxalq danışıqlar platforması çərçivəsində də real nəticəyə yol açacaq addımlar atmaqdan çəkinir- bunun nəticəsidir ki, istər Avropa İttifaqı Şurasının, istərsə də Rusiyanın sülh çağırışları cavabsız qalır. Paşinyanın "yayınma siyasəti" indiyə qədər bəzi nüansları uğurla davam edən prosesi yenidən qaranlığa yuvarlayır.

Təəssüfləndirici haldır ki, İrəvanın bu qeyri-adekvat davranışı sülh üçün çağırış edən oyunçular tərəfindən etiraf olunmur - necə ki, 30 ilə yaxın Ermənistanın adı işğalçı kimi çəkilmirdi, indi də İrəvanın sülh prosesinə yaratdığı maneələr etiraf edilmir. Fransanın arxasına sığınaraq sülhü uzadan Ermənistana qarşı beynəlxalq qınaq belə ortaya qoyulmur - tam əksinə, istər Aİ Şurasının prezidenti Şarl Mişel, istərsə də ABŞ Paşinyanı yenə də açıq kontekstdə tənqid etmir, Ermənistana qarşı sülhə məcburedici addımlar atmır. Bir tərəfdən bölgə üçün sülhün vacibliyindən danışanlar digər tərəfdən sülhə maneə olana qarşı təsirli addımlardan çəkinir.

### İşğalçının stimullaşdırılması...

Vurğulandığı kimi, Ermənistanın sülhü sabotaj etməsinin bir səbəbi də beynəlxalq qınağa məruz qalmamaqla yanaşı, Qərbin bu və ya digər şəkildə "dəstəyini" almasıdır. Yada salaq ki, Ermənistan silahlı qüvvələrinə dəstək üçün Avropa Sülh Fondu Ermənistana 10 milyon avroluq yardım paketi ayırıb. Əcnəbi ekspertlərə görə, Ermənistana ayrılan vəsaitlərin humanitar təyinatı, aldadıcı olmaq ehtimalı böyükdür. Eyni zamanda, Fransa tərəfindən açıq silahlandırılma, ABŞ tərəfindən isə hərbi təlimlərə cəlb olunması İrəvanı sülhdən yayınmağa sövq edir - beləliklə, Ermənistan yenidən Cənubi Qafqazda təhlükəsizlik üçün təhdid olmaqda davam edir. Bu isə yeni dövr üçün müəyyənləşdirilən iqtisadi layihələri də təhlükə altında qoyur...

***P.İSMAYILOV***

# Təhlükəsiz Cənubi Qafqaz qurmaq üçün 5 məqam...

Qalib Azərbaycanın yaratdığı reallıqlar Bakı ilə İrəvanı heç vaxt olmadığı qədər sülhə yaxınlaşdırıb. Bu reallıqların açdığı fürsət pəncərələrindən lazımınca bəhrələnməklə Cənubi Qafqazı sülh, sabitlik və əməkdaşlıq regionuna çevirmək mümkündür.

Təəssüf doğuran haldır ki, hələlik bu mümkün olmur. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla ölkəmizdə səfərdə olan Türkiyə Xarici İşlər Nazirliyinin Şərqi Avropa və Cənubi Qafqaz Baş İdarəsinin rəisi Mehmet Samsarın rəhbərlik etdiyi nümayəndə heyəti arasında baş tutan görüşdə bununla bağlı xüsusi narahatlıq ifadə olunub. Nazir Ceyhun Bayramov Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi barədə qarşı tərəfi ətraflı məlumatlandırıb. Sülh prosesinin qarşısında duran çağırışların, o cümlədən ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən və Ermənistan konstitusiyasında iddiaların, üçüncü dövlətlər tərəfindən Ermənistanın hərbiləşməsinə dəstək verərək regional sabitliyə hədə törədən addımların hələ də qalmaqda olduğu diqqətə çatdırılıb.

### Sülh üçün təhdidlər hələ də qalmaqdadır

Bu kimi təhdidlərin sülhə və sabitliyə, bölgədə qarşılıqlı əməkdaşlığa, regional nəqliyyat əlaqələrinin inkişafına, ümumilikdə regional normallaşmaya mane olduğu qeyd edilib, onların aradan qaldırılmasının vacibliyi vurğulanıb.

### Azərbaycan sülh gündəliyinə sadiq olsa da...

İkinci Qarabağ müharibəsindən əvvəlki mərhələdə aparılan sülh danışıqlarında daim konstruktivlik göstərən Azərbaycan postkonflikt dövründə də dərin məzmunlu sülh gündəliyinə malikdir. Qalib Azərbaycan müharibə başa çatdıqdan sonra birinci olaraq sülh istəyindən çıxış edib. Prezident İlham Əliyev müxtəlif auditoriyalar qarşısındakı çıxışlarında dəfələrlə birmənalı şəkildə bəyan edib ki, 10 min kvadratkilometrdən çox ərazinin Ermənistan tərəfindən dağıdılmasına, insanlarımızın çəkdiyi zülmlərə baxmayaraq, biz qarşı tərəfə sülh təklif etmişik. Xatırladaq ki, respublikamız İkinci Qarabağ müharibəsi başa çatandan az sonra Ermənistana 5 bənddən ibarət sülh paketi təqdim edib. Vurğulamaq istərdik ki, bu sənəddə qalib tərəf olan Azərbaycanın hansısa bir əsassız iddiası yer almayıb. Bu paketdə beynəlxalq normalara istinad olunub.

Postmüharibə dövründə qalib Azərbaycan sülhyaratma prosesinə qoşulan bütün səmimi vasitəçilərin səylərini alqışlayıb, müxtəlif platformalarda aparılan danışıqlarda fəallıq göstərib. Sülh prosesinə real töhfələr vermək istəyən Azərbaycan ikitərəfli dialoqun inkişaf etdirilməsini daha məqbul variant hesab edir. Artıq ikitərəfli formatda aparılan müzakirələrdə müəyyən uğurlar əldə olunub, o cümlədən sərhədlərin delimitasiyasına strat verilib. Ölkəmiz o mövqedən çıxış edir ki, ikitərəfli müzakirələrin intensivliyi artırılmalıdır. Yeri gəlmişkən, Azərbaycan iyunun sonlarında sayca 10-cu sülh paketini qarşı tərərfə təqdim edib.

Ancaq müharibənin qalib tərfi olan Azərbaycan sülh gündəliyinə sadiq qalsa da, Ermənistan tərəfindən buna adekvat cavab verildiyinin şahidi olmuruq. Məğlub ölkə müharibənin dərslərindən nəticə çıxarmaq və Azərbaycanın beynəlxalq hüquqa əsaslanan şərtlərini qəbul etmək əvəzinə, sülh prosesini sadəcə imitasiya edir. Nikol Paşinyan və digərlərinin "sülh müqaviləsini bir aya imzalaya bilərik" kimi səslənmələri real müstəvidə adekvat addımların atılması ilə öz təsdiqini tapmır. Bunun əvəzində biz Ermənistanın Azərbaycanın sülh təkliflərini geri çevirdiyinə, yalnız beynəlxalq ictimaiyyəti aldatmağa hesablanan manipulyasiyalarla məşğul olduğuna şahidlik edirik.

Sülhə aparan yolda Ermənistan rəhbərliyi mənasız bəyanatlar verməkdənsə, ilk növbədə öz üzərinə düşənləri yerinə yetirməlidir. Bəs real sülh üçün şərtlər nədən ibarətdir və yaxud indiki mərhələdə sülhü əngəlləyən addımlar hansılardır? Sualın cavabı olaraq bir neçə mühüm məqama diqqət çəkək.

Birinci məqam: Ermənistan "ölkənin konstitusiyasında dəyişiklik edilməlidir" şərtinin icrasını yubadır, bu istiqamətə konkret addımlar atmır. Ölkəmizin birmənalı mövqeyi belədir: Sülh sazişinin imzalanması üçün bütün fundamental amillər təmin olunmalı, o cümlədən hüquqi boşluqlar tamamilə aradan qaldırılmalıdır. Bu gün sülhə gedən yolda ən böyük maneə isə məhz Ermənistanın konstitusiyası və bir sıra digər qanunvericilik aktlarıdır. Həmin sənədlərdə qonşu dövətin Azərbaycana qarşı ərazi iddiaları açıq-aşkar legitimləşdirilib. Ermənistan konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarını özündə ehtiva edən müddəalar çıxarılmadan hər hansı bir sülh sazişinin imzalanması mümkü deyil. Çünki hüquqi əsaslar yaradılmayan sülh qalıcı sülh olmayacaq.




İkinci məqam: Azərbaycan reallıqdan çıxış edərək Ermənistana artıq ölü quruma çevrilmiş Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-ə birgə müraciət ünvanlamağa çağırış edir. Ermənistan isə müxtəlif bəhanələr gətirməklə bunu etməyə tələsmir. Prezident İlham Əliyevin də dəfələrlə bildirdiyi kimi, artıq uzun müddətdir ki, bu qrup fəaliyyətsizdir. Hazırda Minsk qrupunun fəaliyyətdə olması üçün heç bir səbəb yoxdur. Çünki həmsədrlər de-fakto bir-biri ilə müharibədədirlər, yəni onların ikisi digərinə qarşı bir yerdədirlər. Fransa burada bütün imkanlardan məhrum edilib. Onlar nəinki vasitəçi, heç Azərbaycan razılıq vermədən regionda ola bilməzlər. Ölü qurumu "diri" saxlamaq heç bir məntiqə səxmır. Ermənistanın Azərbaycanın bəhs olunan çağırışına adekvat cavab verməməsi bu ölkənin sülh istəyindən uzaq olduğunu bir daha təsdiqləyir.

Üşüncü məqam: Postmüharibə dövründə məğlub ölkənin silahlanma yolu tutması sülh prosesinə açıq-aşkar təhdidlər yaradır. Biz görürük ki, kənar güclər, o cümlədən də Fransa, ABŞ, Avropa İttifaqı Ermənistanı yeni müharibəyə təhrik edir və revanşisləri ruhlandırırlar. Məlum olduğu kimi, Azərbaycan cari il aprelin 5-də ABŞ-ın, Fransanın və Ermənistanın iştirakı ilə keçirilən görüşlə bağlı ciddi narahatlıqlarını ifadə etmişdi. İndi həmin görüşdəki gizli razılaşmaların üstü açılır. Söhbət Ermənistana hərbi dəstək göstərilməsindən gedir. Avropa Sülh Fondundan Ermənistana hərbi məqsədlər üçün böyük həcmlərdə vəsait ayrılıb. Fransa bu ölkəyə öldürücü silahlar tədarük edir. Yenə də Fransanın vasitəçiliyi ilə Ermənistan Hindistandan silahlar alır. Bu istiqamətdə ABŞ-nin fəallığı da göz önündədir. Bir qədər bundan əvvəl ABŞ-Ermənistan birgə hərbi təlimləri baş tutdu. Artıq bu ölkənin hərbi mütəxəssisləri Ermənistanda praktiki fəaliyyətə cəlb olunublar. Bütün bunlar nədən xəbər verir? Və yaxud alınan silahların hədəfi hansı ölkə olacaq? Əlbəttə ki, Azərbaycan. Belə olan haldan hansı sülhdən danışmaq mümkündür?

Dördüncü məqam: Ermənistanın regiona kənar güclərin ayaq açmalarına "yaşıl işıq" yandırması sülh üçün ən real təhlükələrdən biridir. Azərbaycanın yanaşması belədir ki, regionun problemləri region dövlətlərinin iştirakı ilə birlikdə çözülməlidir. Məhz ölkəmizin təklifləri əsasında 3+2 platforması çərçivəsində danışıqlar davam etdirlir. Eyni zamanda, yuxarıda vurğuladığımız kimi, postmüharibə dövründə Azərbaycanla Ermənistan arasında bir sıra razılaşmalar məhz ikitərəfli müzakirələr nəticəsində əldə olunub. Kənar güclər isə kəsişən maraqları səbəbindən sülh prosesinin irəliləməsinə maneçilik törədirlər. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, bizim ərazilərimiz heç vaxt regiondan kənar güclər üçün plasarm meydanına çevrilməyəcək. Regionda mövcudluqlaını təmin etmək, buradan Rusiyanı sıxışdırıb çıxartmağa nail olmaq istəyən Qərb dairələri plasdarm kimi məhz Ermənistanı seçiblər və N.Paşinyan hakimiyyəti də bundan məmnun görünür.

### Sülh üçün şərtlər mütləq qaydada təmin olunmalıdır

Beşinci məqam: Burada Ermənistan-Türkiyə normallaşma prosesi barədə də bəhs etmək zəruridir. Heç kəsə sirr deyil ki, bu gün Azərbaycan və Türkiyənin müttəfiqlik münasibətləri ən yüksək səviyyədədir. N.Paşinyan və onun komandası, həmçinin bəzi kənar güclər özlərini bu amili "yaddan çıxarmış" kimi aparırlar. Onlar özlərisayağı bicliklər işlətməklə Ermənistan-Türkiyə normallaşma prosesini Azərbaycan-Türkiyə münasibətləri kontekstindən ayırmağa çalışırlar. Əlbəttə, bu baş verərsə, həm Azərbaycanın, həm də Türkiyənin mövqeyi əhəmiyyətli dərəcədə zəifləyər. Ancaq bu məkrli planın baş tutması sadəcə mümkün deyil. Düzdür, bu günlərdə Ermənistan və Türkiyənin xüsusi nümayəndələrinin iki ölkə arasındakı sərhəddə görüşüb müzakirələr aparmaları rəsmi İrəvanı müəyyən dərəcədə ruhlandırdı. Bunu Ermənistan mtbuatında yer alan manşet xəbərlərdən, analitik yazılardan da görmək mümkündür. Ancaq qardaş ölkənin xarici işlər naziri Hakan Fidanın son olaraq verdiyi açıqlama Ermənistan rəsmiləri üçün əsl soyuq duş effektinə bərabər oldu. "Azərbaycan ilə Ermənistan arasında danışıqlar prosesi davam edir. Bunun müsbət nəticələnməsi üçün ssenarimizi hazırlamalıyıq. Hazırkı fəaliyyətlər də bu istiqamətdədir", - deyə Hakan Fidan vurğulayıb. O fikirlərinin davamı kimi əlavə edib: "Danışıqların tamamlanacağı təqdirdə, müsbət ssenarini həyata keçirəcəyik. Yəni, Ermənistan ilə sərhəd qapımızı aça bilərik".

Əlavə şərhə ehtiyac yoxdur. Ermənistan rəsmiləri heç vaxt Azərbaycan-Türkiyə münasibətlərinin pisləşəcəyi barədə xəyallar qurmamalıdırlar. Bu ölkədə o reallığı qəbul etməlidirlər ki, Azərbaycan-Türkiyə münasibətləri regionda sülhün həm əsas şərtlərindən və həm də davamlı sabitliyin, əməkdaşlığın mühüm qarantlarından biridir.

***MÜBARİZ***

# Növbəti sosial qayğı

## Vətən müharibəsi qazilərinin övladlarına vergi güzəştləri verilir



Nazirlər Kabineti 4 yanvar 2001-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nda dəyişiklik edib. Hökumətin yeni qərarına əsasən, vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənəd təqdim edən şəxslərə həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadları ilə yanaşı, onların övladları da aid edilib.

Məlum olduğu kimi, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda öz canından keçmiş şəxslərin ailələrinə, həmçinin müharibə əlillərinə dövlət tərəfindən hər zaman böyük diqqət və qayğı göstərilir. Belə ki, sağlamlıqlarını torpaq uğrunda itirən Qarabağ əlillərinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəhid ailələri və müharibə əlillərinə mütəmadi olaraq yeni mənzillər, avtomobillər verilir, habelə onların müalicəsi üçün reabilitasiya mərkəzləri açılır və digər sosial tədbirlər həyata keçirilir. Bu siyasətə uyğun olaraq, sosial cəhətdən həssas əhali qruplarının, o cümlədən müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin, şəhid ailələrinin, müharibə veteranlarının və digər formada zərərçəkmiş şəxslərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı həyata keçirdiyi sosial siyasət son bir ildə daha da gücləndirilib, Azərbaycanın ərazi bütövlüyünün bərpası zamanı həlak olmuş şəxslərin valideynləri və arvadları (ərləri) ilə yanaşı, onların övladlarının da hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəlirinə güzəştlər artırılıb.

Vergi Məcəlləsinin 102-ci maddəsində göstərilən qaydada azadolma və güzəştlər tətbiq edilir. Nazirlər Kabinetinin 4 yanvar 2001-ci il tarixli 4 nömrəli "əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin siyahısı" adlı qərarda güzəşt hüququ verən təsdiqedici sənədlər müəyyənləşib və gəlir vergisinə aid güzəştlər həmin sosial qrupların əməkhaqqından vergi hesablanarkən 400, 200,100 və 50 manatlıq həddə şamil olunur. Belə ki, Azərbaycanın Vətən Müharibəsi Qəhrəmanları, Azərbaycanın Milli Qəhrəmanları, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər, həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadları ərləri və övladları muzdlu işdən vergi tutulmalı olan aylıq gəlirin 400 manat məbləğində vergisindən azad olunub. Vergi Məcəlləsində 2023-cü ildə edilən yeni dəyişikliklərdən sonra bu güzəştlərin miqyası bir qədər də artrırılıb və şəhid statusu verilmiş şəxsin valideynlərinin, dul arvadlarının (ərlərinin) vergi tutulmalı olan aylıq gəlirləri (əməkhaqqı gəlirləri) ilə bağlı 800 manat məbləğində vergi güzəştin verilməsi təsbit olunub. Eləcə də 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri və arvadları (ərləri) ilə yanaşı, övladlarına da vergi tutulmalı olan aylıq gəlirləri ilə bağlı güzəştlərin verilməsi müəyyənləşib.

Bu siyasət tədbirləri çərçivəsində şəhid ailələrinin və sağlamlığını itirmiş qəhrəman döyüşçülərimizin qayğılarına həssas münasibətin təzahürü kimi sosial xarakterli güzəştlər vasitəsilə onların maliyyə-vergi yükü azaldılıb. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərdə şəhid olmuş şəxslərin ailə üzvlərinə və qazilərə verilən maddi yardımın 20 min manatadək olan hissəsinin gəlir vergisindən azad edilməsi nəzərdə tutulub. Həmçinin, hədiyyələrin, təhsil və ya müalicə haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 1.000 manatadək olan hissəsi gəlir vergisindən azaddır və bu azadolma sosial statusundan asılı olmayaraq maddi yardım alan bütün fiziki şəxslərə tətbiq edilir. Şəhid olmuş şəxslərin ailə üzvlərinə və hərbi əməliyyatlar nəticəsində əlil olmuş hərbi qulluqçulara və mülki şəxslərə dövlət tərəfindən göstərilən diqqət və qayğının davamı kimi, bu kateqoriyaya aid fiziki şəxslərə verilən və məqsədli təyinatından asılı olmayaraq, maddi yardımların 20 min manatadək olan hissəsinin gəlir vergisindən azad edilməsi nəzərdə tutulur.

Gəlir vergisi üzrə digər dəyişiklik ölkə daxilində müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 10 min manatadək olan hissəsinin, xaricdə müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 50 min manatadək olan hissəsinin gəlir vergisindən azad edilməsidir.

Göründüyü kimi Vətən Müharibəsindən sonra dövlətimizin qarşısında duran ən mühüm sosial məsələlərdən biri şəhid ailələrinin və sağlamlığını itirmiş qəhrəman döyüşçülərimizin, onların ailə üzvlərinin qayğıları, sosial vəziyyətinin yaxşılaşdırılması daim diqqət mərkəzindədir.

Beləliklə, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, Vergi Məcəlləsinin 102.1.1-ci maddəsində təsbit olunmuş gəlir vergisi üzrə azadolma kateqoriyasına daxil olan həmin ailələrin övladlarına münasibətdə güzəştli vergi rejiminin tətbiqi genişləndirilir və güzəştlər bu kateqoriaydan olan insanların sosial müdafiəsinin gücləndirilməsinə imkan yaradacaq.

*ELBRUS*

# Dövlətçilik atributlarımızın yeni nişanəsi

## Azərbaycan manatının yeni dizaynında Şuşa, Xankəndi, Xocalı və digər milli elementlərin təsviri istisna deyil

Mərkəzi Bank (MB) Azərbaycanın milli valyutası olan manatın yeni nişanlarının hazırlanmasına başlamaq niyyətindədir. Yeni nəsil pul nişanlarının emissiyasında əsas kompozisiya kimi milli elementlərə yer verilməsi nəzərdə tutulur. Belə ki, yeni əskinaslarda və banknotlarda milli dəyərlərimizi, tarixi və mədəni irsimizi özündə daşıyan, habelə müasir milli priroritetlərə və çağırışlara uyğunluğunu təmin edən elementlərə xüsusi yer veriləcək. Bu məqsədlə ictimaiyyətin nümayəndələrinin fikir və rəylərinin, təkliflərinin öyrənilməsi üçün onlara sorğu platforması yaradılıb. Vətəndaşlar bu platformada iştirak edərək öz təkliflərini MB ilə bölüşmək imkanı əldə edəcəklər. Beləliklə, ölkə ictimaiyyəti və MB-nin birgə səmərəli əməkdaşlıq modeli əsasında milli valyutamızın tarixilik, ənənəyə bağlılıq və gələcəyə baxış harmoniyası əsasında milli mənsubiyyətimizi əks etdirən yeni valyuta təsviri hazırlanacaq. Bu strateji konseptə söykənməklə Azərbaycanın bütün nominallarda daha müasir valyutası tədavülə çıxarılacaq.

MB-nin yeni nəsil valyuta emissiyasına keçməsini zəruru edən əsas hansı amillərdir?

Məlumdur ki, dünya ölkələrinin əksəriyyəti davamlı olaraq strateji pul konsepsiyasına əsaslanmaqla milli valyutaların dizayn və kompozisiyasında dəyiçikliklər edir, yeni elementlər əlavə etməklə pul nişanlarının saxtalaşdırılmasının qarşısını alır. Beynəlxalq təcrübədə hər 10-15 ildən bir pul nişanlarının yenilənməsi, o cümlədən yeni nəsil milli pul nişanlarının yaradılması həyata keçirilən bir təcrübədir. Bu zaman dövrün tələblərinin, cəmiyyətin gələcək inkişaf strategiyasının, yeni iqtisadi və siyasi reallıqlardan meydana gələn çağırışların cəmiyyətə çatdırılması kimi mühüm faktorlar nəzərə alınır. Azərbaycan hökuməti də pul komissiyasının müvafiq qərarları ilə ötən 30 ildə pul nişanlarının estetikasına və dizaynına dəyişikliklər edib.



Yeni pul nişanlarının dizaynı hər zaman vahid konsepsiya əsasında hazırlanmış, dizayn mövzusu "Müstəqil Azərbaycan" müəyyən edilməklə ğlkəmizin bütün sahələrdə müstəqilliyini, inkişafını və Avropa ailəsinə inteqrasiyasını təzahür edib. Eləcə də, iqtisadi dəyərlərin real ifadəsi manatın nominal ifadəsinə də sirayət edib. Bu kursa uyğun olaraq 2006-cı ildəı denominasiya nəticəsində tamamilə yeni forma və məzmunda, milli ornament və yeni iqtisadi dövrün vəhdətinə uyğunlaşdırılmış manatlar tədavülə buraxılıb. Yeni nümuməli pul nişanlarının nominal strukturu 7 ədəd kağız pul nişanından (1, 5, 10, 20, 50, 100, 200 manat) və 6 ədəd metal pul nişanından (1, 3, 5, 10, 20, 50 qəpik) ibarət olmaqla milli valyutanın pul aləti kimi həm keyfiyyət göstəricilərinə, həm də dəyər ifadəsinə görə, digər ölkələrin valyutalarından üstünlüyünü qoruyub saxlayıb. Həmçinin yenilənmiş konsepsiya çərçivəsində pul nişanlarımızın hər bir nominalı ayrı-ayrılıqda alt mövzulara həsr edilib və 2018-ci ildə isə "Müstəqil Azərbaycan" konsepsiyası çərçivəsində 200 manat nominallı kağız pul nişanı tədavülə buraxılmaqla milli inkişafın daha dəyər ifadə edən valyuta simvoluna çevrilib.

Pul islahatları çərçiviəsində yeniləşən əskinasların emissiyası zamanı həm də təhülkəsizlik amilinə də xüsusi diqqət yetirilir və tədavülə çıxarılan hər yeni pul nişanının müfafizə elementləri daha da gücləndirilir. Bu nöqteyinəzəirdən Azərbaycanın hər dəfə dəyişən banknotlarında, xüsusilə də, kağız pul nişanlarında ən son mühafizə sistemlərinə yer verilib ki, bu da təhlükəsizliyin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyıb. Banknotların fiziki keyfiyyət təkmilləşdirmələri zamanı həm milli kağız, həm də metal pul nişanlarının reproduksiyasına da xüsusi diqqət yetirilib, reproduksiya zamanı valyutanın keyfiyyət parametrləri daha da gücləndirilib.

Ümumi mühafizə fəlsəfəsi əsasında hazırlanan yeni nəsil pul nişanlarının təhülkəsizlik kodlarının möhkəmləndirilməsinin nəticəsidir ki, Azərbaycan manatının saxta nominallarını hazırlamaq hədsiz dərəcədə çətinlik yaradıb və saxta pul nişanları hazırlayanlar məhz bu mühafizə elementlərinə müdaxilə edə bilməyib. Azərbaycanın milli valyuta kağız pul nişanlarının mühafizə sistemi 4 pilləli olmaqla dünyada ən güclü təhlükəsizlik simvollarına malikdir. Belə ki, hər nominallı kağız pul nişanlarının əsas fon rəngi mövcuddur və mühafizə elementləri bütün nominallı kağız pul nişanlarında eyni yerlərdə yerləşdirilib. Manatın mühafizə elementləri yüksək texnologiyalar əsasında hazırlandığından saxta pulkəsənlərin əl izlərini dərhal müəyyənləşdirmək mümkündür. Həmçinin metal pul nişanlarının mühafizə sistemi pul nişanlarının yan tərəfində yerləşdirilmiş xüsusi təhlükəsizlik elementindən, dizayn elementlərinin dəqiqi cizgilərindən, zərb olunmuş qabarıq səthdən, pul nişanı üçün müəyyən olunmuş texniki göstəricilərdən, o cümlədən diametr, çəki və metal tərkibdən ibarətdir ki, bu da saxtalaşdırmaya ciddi maneə yaradır.

Bütün bu meyarlar və pul siyasəti ənənəsinə rəğmən, valyuta alətləri də yeni çağırışlardan doğan yeni keyfiyyət dəyişikliklərinə məruz qalır, qabaqcıl texnologiyaların və pul elementlərinin əlavə formalarının təsvirinə ehtiyaclar yaranır. Bu siyasətə uyğun olaraq pul nişanlarının müasir çağırışlardan doğan inkişaf iyerarxiyasına uyğunlaşdırılması məqsədilə tədavülə yeni nəsil pul nişanlarının buraxılması siyasəti ölkəmizdə son onillikdə də davam etdirilib. Hazırda isə Azərbaycanın inkişafının tam yeni mərhələsi başlayıb. Tarixi zəfərdən sonra öz dövlət suverenlyinin bütün ərazilərində təmin edən ölkəmizin iqtisadi siyasətində də əhəmiyyətli qərarlar qəbul edilib, iqtisadi rayonların yeni təsnifatı müəyyənləşib, iqtisadi arxitekturaya yeni güc sütunları əlavə olunub, torpaqlarımızın işğaldan azad olunmasından sonra ölkəmizin regionda və dünyada siyasi-iqtisadi səviyyədə yeni obrazını formalaşdırıb. Bu, dövlətçilik atributlarından olan milli pul nişanlarının yeni dövrə və çağırışlara uyğunlaşdırılması məsələsini gündəmə gətirib, pul siyasətində, milli valyutanın kompozisiyasında yeni yanaşmaları, baxış fəlsəfəsini meydana çıxarıb. Bu amil milli valyutanın konseptinin daha da zənginləşməsinə imkan yaradır, suveren Azərbaycanın yeni nəsil pul nişanlarında Şuşa, Xankəndi, Xocalı və digər milli elementlərin təsvirini və obrazını təsəvvür etdirməyə imkan yaradır.



*ELBRUS CƏFƏRLİ*

# Azərbaycan Avropaya qaz nəqlini artırır

## Ölkəmizin yanacaq ixrac etdiyi ölkələrin sayı 10-u ötəcək

Avqustun 1-dən etibarən Azərbaycan Avropanın digər ölkəsinə - Sloveniyaya qaz ixracına başlayıb. Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən hasil olunan qaz Sloveniyanın qaz təchizat sisteminə nəql edilib. 2024-cü il iyulun 17-də SOCAR ilə Sloveniyanın təbii qaz bazarındakı ən iri şirkəti olan "Geoplin" arasında qaz təchizatı sahəsində əməkdaşlığın genişləndirilməsinə dair imzalanmış Anlaşma Memorandumuna əsasən tərəflər enerji layihələrində birgə addımlar atmaq niyyətini bəyan edib. Uzunmüddətli enerji tərəfdaşlığının ilk mərhələsində qazın nəqli, sonrakı prosesdə yanacağın şaxələndirilməsi və digər regionlara çatdırılması, eləcə də Sloveniya vasitəsilə Mərkəzi-Şərqi Avropa bazarlarında enerji satışı şəbəkələrinin qurulması nəzərdə tutulur.




Azərbaycanın Sloveniya qaz bazarına daxil olması ilə mavi yanacaq nəql etdiyi ölkələrin sayı 9-a çatmış oldu. Belə ki, Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan və Serbiyaya qaz ixracı ailəsinə Sloveniya da qoşulmaqla Azərbaycan Avropada say baxımından ən çox qaz tədarükçüsü oldu. İlin sonuna qədər digər Avropa ölkələrinə də qaz nəqlinin təmin edilməsi planlaşdırılır ki, bununla da Azərbaycanın qaz ixrac etdiyi ölkələrin sayı 10-u ötmüş olacaq.

Ölkəmizin qaz tədarükü zəncirinə daxil olan ölkələrə yanacaq ixracını təmin etmək üçün ehtiyatlarının həcmi də əhəmiyyətli dərəcədə artmaqdadır. Son 2 ildə ölkəmizin qaz istehsalı potensialı hər il təxminən 4-5 milyard kub.metr artır ki, bu da ixrac coğrafiyasının böyüməsinə səbəb olur. Qaz istehsalı 2024-cü ilin birinci yarısında 25,1 milyard kub.metri ötüb ki, yanacaöın təxminən 60 faizi xarici ölkələrə nəql edib. Belə ki, 6 ay ərzində xaricə qaz satışı 12,7 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə təqribən 6 faiz çoxdur. Mavi yanacağın təqribən 5 milyard kubmetri Türkiyəyə, 1,3 milyard kubmetri Gürcüstana, 6,4 milyard kubmetri isə Avropaya nəql edilib. Avropa regionuna qaz ixracı 2023-cü ilin eyni dövrü ilə müqayisədə təxminən 10 faiz artıb.

Göründüyü kimi ölkəmizin 2024-cü ilin yekununda ümumi qaz ixracını 25 milyard kubmetrdən də çox tədarük edəcəyi, yanacağın isə Avropaya nəql həcmlərinin 13 milyardı ötəcəyi gözlənilir. Bu isə əlavə olaraq Avropaya 1,2 milyard kub.metr qaz ixracı deməkdir.

Azərbaycan qazının həcminin artması və Avropa ölkələrində yanaacq əldə edən ölkələrin sayının genişlənməsi Cənub Qaz Dəhlizi konsorsimunu Transadriatik qaz kəmərinin (TAP) genişləndirilməsi üçün dayanmadan tədbirlər görməyə vadar edib. Çünki yaxın 5 ildə qazın nəql həcmləri 10 milyard kub.metrə qədər artacaq ki, bu da TAP və nəql zəncirindəki ötürmə infrastrukturlarının gücləmdirilməsini tələb edir. TAP Əməliyyat Qrupunun icraçı direktoru Luka Skiepatti bildirib ki, hazırda kəmərin genişləndirilməsinin birinci mərhələsinin həyata keçirilməsi üçün qrup üzvləri tərəfindən yeni xərc portfeli müəyyənləşiv bə investorlar ilk mərhələdə bu faza üzrə 132 milyon avro xərcləmək fikrindədir. TAP-ən genişləndirilməsinin ilk mərhələsi 2025-ci ildə başa çatdırılması başa çatdırılacaq ki, nəticədə boru kəmərinin gücünə əlavə 1,2 milyard kub.metr əlavə ötürmə potensialı qoşulacaq. L.Skiepatti qeyd edib ki, genişləndirmə çərçivəsində Yunanıstan-Türkiyə sərhədində yerləşən Kipoi (Aleksandroupolis ərazisi) mövcud kompressor stansiyasında daha bir kompressor qurğusu quraşdırılacaq və avadanlıq modernləşdiriləcək. Hazırda bu istiqamətdə Cənub Qaz Dəhlizi tranziti üzərində yerləşən ölkələr öz nəql şəbəkələrini bu marşruta əlaqələndirmək üçün texniki-təchizat məsələlərini yekunlaşdırmaqdadır. Nəticədə Avropa interkonnektor layihələri icra olunduqca Azərbaycan qazının daha çox Avropa ölkəsinə ixrac edilməsi üçün əlavə imkanlar olacaq. TAP-ın genişləndirmə layihəsinin ilk mərhələsi yekunlaşdıqdan sonra ikinci fazaya starat veriləcək. 2027-ci ildə nəzərdə tutulan bu genişləndirmə mərhələsinin tamalanmasından sonra isə kəmərin gücü rekord həcmlərdə - ən azı 25 milyard kub.metr qaz ixrac etməyə imkan verəcək.

TAP-ın Avropa İttifaqına qaz tədarükünün artırılması imkanlarının genişləndirilməsində qiymətləndirmə və proqnozlaşdırma planı hazırlayan "REPowerEU"nun ehtimallarına görə, 2030-cu ilə qədər kəmərin hazırkı nominal ötürücülük qabiliyyəti ən azı 10 milyard kub.metr artacaq. Kəmərin ötürücülük gücünün artmasında əsas mənbə "Şahdəniz" yatağından əldə edlən qaz olacaq. Mövcud resursların qiymətləndirilməsinə əsasən, növbəti illərdə ixracın artırılması üçün digər mənbələr də səfərbər olunacaq. Mütəxəssislərin apardığı kəşfiyyat işləri nəticəsində əldə edilmiş qiymətləndirmələrə əsasən, Azərbaycan Xəzər regionunda kifayət qədər qaz ehtiyatlarına malikdir və təsdiq edilmiş ehtiyatların həcmi 2.6 trilyon kubmetr proqnozlaşdırılır. Bu həcm daxili tələbat və ixracla birlikdə ən azı 100 ilə kifayət edir. Bu baxımdan Azərbaycanın Avropa İttifaqının qaz təchizatında bir əsrə yaxın tədarükçü dövlət olacağı şübhəsizdir. Xəzərin Azərbaycan sektorunda yerləşən "Babək", "Naxçıvan", "Zəfər-Məşəl", "Ümid", "Araz-Alov-Şərq" və "Şəfəq-Asiman" perspektiv strukturlarında proqnozlaşdırılan ehtiyatlar 2,6 trilyondan da çox mənbələrin formalaşmasına əsaslı zəmin yaradır.

Beləliklə, proqnoz və tədarük planına əsasən, 2024-2027-ci illərdə ölkəmizin qaz istehsalı 40 faiz artacaq və Avropaya qaz nəql edən TAP kəmərinin illik gücü 20 milyard kubmetrədək artırılmalıdır. Bu rəqəmlər və proqnozlar Azərbaycanın qaz potensialını da artırmış olacaq və qaz təchizatının coğrafiyasının qarşıdakı illərdə daha da genişlənməsinə imkan verəcək. Bu isə digər ölkələrə də qaz nəqlini təmin edə biləcək. Bu isə yaxın illərdə Slovakiya, Moldova, Avstriya və Moldovanın da Azərbaycan qazını əldə etməsinə imkan verəcək. Bu isə, ümumilikdə, Avropa İttifaqı regionunun təxminən 40 faizi ölkəmizin sayəsində enerji təhlükəsizliyi təmin ediləcəkdir.

Ancaq növbəti mərhələdə bölgənin digər ölkələrini - Türkmənistan, Özbəkistan, Qazaxıstanın da Cənub Qaz Dəhlizinə qoşulmasını və bununla da təkcə bu mənbədən Avropaya illik 40-50 milyard kub. metrə yaxın qaz nəqlinin əldə olunması ehtimal olunur. Aİ Mərkəzi Asiya-Xəzər regionlarından çoxşaxəli qaz nəqli tranziti şəbəkəsi yaratmaq niyyətindədir. Mərkəzi Asiyanın ehtiyatlarının Avropa bazarına çatdırılması istisna deyil.

Qeyd edək ki, Azərbaycanın yeni enerki bumu mərhələsində Sloveniya da daxil olmaqla Avropa ölkələrinə "yaşıl enerji" nəql etməsi nəzərdə tutulub. "Qara dəniz" dəhlizi vasitəsilə Azərbaycan mövcud qiymətləndirmələr üzrə 150 QVt-dan artıq yaşıl enerji potensialının böyük bir hissəsinin Avropa bazarlarına çıxışını təmin edilməsi nəzərdə tutulub.

*ELBRUS CƏFƏRLİ*

# Biznes üçün yeni imkanlar

## İnnovasiya və yüksək texnologiyalara dəstək məqsədilə Rəqəmsal Məcəllə hazırlanır

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi Rəqəmsal Məcəllə layihəsini yaxın vaxtlarda yekunlaşdıracaq. Məcəllə ölkədə rəqəmsal sahədə hüquqi tənzimlənməni, müxtəlif inkişaf konsepsiyalarının idarə olunmasına nəzarəti, süni intellekt strategiyasının və "Elektron hökumət" infrastrukturlarının işinin koordinasiya olunmasını və digər qanunvericilik məsələlərini özündə əks etdirəcək. Bu baxımdan sənədin beynəlxalq məsləhətçi şirkət cəlb etməklə, rəqəmsal inkişaf sahəsində beynəlxalq və ölkədaxili təcrübəyə əsaslanmaqla, rəqəmsallaşma və elektron hökumət üzrə beynəlxalq reytinqlərdə ilk 10-luqda olan ölkələrin təcrübəsinə və qanunvericiliyinə uyğun hazırlanması nəzərdə tutulur.

## Avropa və Asiya ölkələri ilə əməkdaşlıq

Rəqəmsallaşma müasir dövrümüzün dinamik sürətlə inkişaf edən və bu və ya digər formada milli iqtisadiyyatlara və cəmiyyətlərə öz təsirini göstərən ayrılmaz prosesinə çevrilib. Son illər ərzində ölkəmizdə "Elektron hökumət"in formalaşması, dövlət orqanlarının informasiya sistemləri arasında xüsusi infrastruktur vasitəsilə informasiya mübadiləsinin aparılması, "Elektron hökumət"in fəaliyyəti üçün vacib əhəmiyyət kəsb edən dövlət informasiya sistemləri və ehtiyyatlarının yaradılması istiqamətində mühüm işlər görülüb, müasir informasiya-kommunikasiya texnologiyalarının, telekommunikasiya qurğularının və innovasiyaların geniş tətbiqi nəticəsində qabaqcıl texnoloji infrastruktur qurulub. Həmin infrastrukturun bazasında iqtisadi inkişafın daha yeni tələbi olan "Rəqəmsal hökumət"ə keçidin sürətləndirilməsi üçün əlavə imkanlar səfərbər edilib. Çünki müasir inkişaf tələbləri rəqəmsal texnologiyaların tətbiqi və açıq məlumatlardan istifadə yolu ilə xidmətlərin göstərilməsini və dövlət idarəçiliyinin təkmilləşdirilməsini zəruri edir. "Rəqəmsal hökumət"in formalaşması isə rəqəmsal bilik, bacarıq və vərdişlərin artırıldığı, o cümlədən biznes proseslərinin avtomatlaşdırıldığı və rəqəmsal iqtisadiyyatın mövcud olduğu rəqəmsal cəmiyyət quruculuğundan keçir. Azərbaycan bu məqsədlərə çatmaq üçün rəqəmsal texnologiyalardan istifadə yolu ilə dövlət idarəçiliyində səmərəlilik və vahid yanaşma təmin edilməsini, dövlət idarəetməsinin və biznes proseslərinin rəqəmsallaşma ilə bu sahələrdəki pərakəndəliliyi aradan qaldırılmasını, iqtisadi artıma və sahibkarlığın, eləcə də insan kapitalının inkişafına nail olunmasını başlıca hədəflər kimi müəyyən edib.

Qeyd edilən istiqamətlərdə ötən illər ərzində kifayət qədər uğur və nailiyyətlər də əldə olunub. Rəqəmsallaşma ilə bağlı qabacıl Avropa və Asiya şirkətləri ilə birgə əməkdaşlıq Azərbaycanın qlobal miqyasda rəqabət qabiliyyəti indeksləri üzrə mövqeyinin artmasında da mühüm rol oynayıb. Belə ki, Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının "Transsərhəd kag?ızsız ticarət" indikatoru üzrə hər il açıqlanan beynəlxalq reytinqində Azərbaycanın mövqeyi MDB və region ölkələri arasında ən üst sırada yer alıb. Həmçinin, Azərbaycan Dünya Bankının hazırladığı "GovTech Yetkinliyi İndeksi"nin (GovTech Maturity İndex - GTMI) 2023-ci il üzrə hesabatında yüksək



nəticələr əldə edib. Belə ki, 198 ölkəni qiymətləndirən indeksdə Azərbaycan yüksək rəqəmsallaşma səviyyəsinə görə birinci pilləyə yüksəlib.

Azərbaycan hökuməti rəqəmsal hökumət, rəqəmsal iqtisadiyyat quruculuğuna daha geniş yer vermək, rəqəmsal transormasiyanı cəmiyyətin idarə olunmasının ən vacib sektoruna çevriməkdə qərarlıdır. Dövlət başçısının müvafiq sərəncamları ilə təsdiq edilimiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədlərində iqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyası istiqamətində ciddi tapşırıqları özündə ehtiva edən tədbirlər müəyyənləşibdir. Həmin tədbirlər planına əsasən, rəqəmsal infrastrukturların vahid mərkəzdə birləşdirilməsi, idarə olunması həlli vacib məsələ kimi dayanır. Bu isə rəqəmsal sektorda vahid hüquqi qanunverilciyin tətbiqini tələb edir. Hazırda rəqəmsal sektorda hüquqi məsələlərin həllində, idarəetmədə meydana çıxan hüquqi problemlər mövcuddur ki, bunların nizamlanması üçün Məcəllənin qəbuluna ehtiyac duyulur.

## Məcəllə rəqəmsal sahədə hansı dəyişikliklərə səbəb olacaq?

Hazırda rəqəmsal sektorda koordinasiyanı təmin edən İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi rəqəmsal transformasiya sahəsində fəaliyyətin təşkili, yerli innovasiya mühitinin formalaşması, ekosistemin möhkəmlənməsinə xidmət göstərməkdədir. Ancaq bir sıra hallarda qanunvericilik və hüquqla bağlı problemlər dövlət və özəl sektorun işinə manəə yaradır. Ona görə də rəqəmsallaşma sahəsində biznesin və dövlət orqanlarının üzləşdiyi hüquqi çətinliklərin aradan qaldırılması ilk növbədə rəqəmsal iqtisadiyyat üçün yeni imkanlar vəd edir, biznesin daha çevik reallaşdırılmasına və iqtisadi artımın sürətlə baş verməsinə şərait yaradır. Eləcə də bu prosesin cəmiyyət həyatına daha geniş nüfuz etməsi yeni iş yerlərinin açılması, həyat keyfiyyətinin yüksəldilməsi, məhsuldarlığın artırılması, şəffaflığın təmin edilməsi, eləcə də kiçik və orta sahibkarlığın inkişafına töhfə verilməsi ilə iqtisadiyyata müsbət təsir göstərir. Bu baxımdan Rəqəmsal Məcəlləsinin qəbul olunması ölkədə rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi, həmçinin müasir texnoloji sahələri dəstəkləyən rəqəmsal cəmiyyətin inkişafı sahəsində həyata keçirilən siyasətin daha da optimallaşmasına imkan yaradacaq.

*E.CƏFƏRLİ*

# Gender bərabərliyinə nail olmaq üçün...

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti üzrə hazırlanmışdır**

Tarixin müxtəlif dövrlərində gender siyasəti bütün sahələrdə qadın və kişilərin bərabərliyini özündə ehtiva edib. Ölkəmizdə də gender bərabərliyi tendensiyasının başlanmasının tarixi uzun illərə gedib çıxır. Bu, özünü ilk növbədə 19-cu əsrin ortalarından başlayaraq qadınların savadlanması, sonra onların ictimai həyata xeyriyyəçi kimi qatılması ilə göstərib.

Məlum olduğu kimi, gender bərabərliyi ictimai həyatın siyasi, iqtisadi, mədəni və digər sahələrində kişi və qadınların bərabərliyini nəzərdə tutur. Gender tendensiyası müxtəlif ölkələrdə özünü fərqli formalarda büruzə verib. Bütün sahələrdə qərar qəbul edilərkən gender bərabərliyinə nail olmaq üçün inkişaf etmiş Avropa dövlətlərində belə bir sıra qanunlar qəbul edilib, müəyyən addımlar atılıb. Amma hələ də dünya üçün gender bərabərliyinin təminatı aktual problem olaraq qalır.

**Yanlış təbliğatlar...**

Təəssüf ki, bəzi hallarda yanlış təbliğat səbəbindən gender bərabərliyi adı altında bir çox ailənin dağıldığına şahid oluruq. Ailə dəyərlərini qorumaq üçün Azərbaycan xalqı bu adət-ənənəni nəsildən-nəslə ötürüb, qoruyub, saxlayıb. Ancaq bəzən mentalitetlə ailə dəyərləri səhv salınır. Mentaliteti insanların yaratdığını bilmək mütləqdir. Ailə dəyərləri isə qədimdən bu günümüzə qədər nəsildən-nəslə ötürülərək gəlib çatıb.

Qadın və kişinin özünə xas xüsusiyyətləri var. Bu xüsusiyyətlər bir-birini tamamladıqda gözəl olur. Təəssüflər olsun ki, ölkəmizdə gender bərabərliyi adı altında yanlış təbliğat aparılır. Bu da dağıdıcı xarakter daşıyır.

Bir çox hallarda gender bərabərliyi deyəndə insanlar bunu yalnız qadın hüquqlarının qorunması kimi başa düşür. Lakin bir məqamı etiraf edək ki, cəmiyyətdə yalnız qadınların deyil, eyni zamanda, kişilərin də hüquqları pozulur. Əsas olaraq öz konsepsiyamız olmalıdır. Maarifləndirmə işləri aparılmalı, istər bağçalarda, istər məktəblərdə, istərsə də ali təhsil müəssisələrində tədbirlər keçirilməlidir. Eyni zamanda, gender məsələlərinin mahiyyəti cəmiyyətin yetişən gəncliyinə başa salınmalıdır.

**2020-ci ildən bəri keçirilən layihə**

Gender bərabərliyinin təmini üçün görülən işlərdən, xüsusilə, regionlarda yaşayan qadınlar, həmçinin kişilər o qədər də məlumatlı deyillər. Qadınların evlə bağlılığı, ana olaraq məsuliyyətlərinin daha çox olmasından irəli gələn problemlər onlara imkan vermir ki, qabağa getsinlər. Təbii ki, söhbət kişinin üzərinə daha çox məsuliyyət götürməli olduğundan getmir. Sadəcə ailədə məsuliyyət bölüşdürülməlidir. Bu baxmdan kişilərində maarifləndirilməsinə ehtiyac var ki, bu, onların




düşüncə tərzinin dəyişməsinə təsir göstərsin.

**"Atalar məktəbi - məsuliyyətli atalığa doğru"**

Gender bərabərliyindən danışmışkən, ölkəmizdə 2020-ci ildən etibarən həyata keçirilən layihəni xüsusilə qeyd etmək yerinə düşər. Belə ki, bu yaxınlarda ölkəmizin bir çox bölgələrində "Atalar məktəbi - məsuliyyətli atalığa doğru" təliminə yenidən start verilib. Təlim Avropa İttifaqının maliyyə dəstəyi ilə BMT-nin Əhali Fondu (UNFPA) və BMT-nin Qadınlar Agentliyi (UN Women) tərəfindən həyata keçirilən "Avropa İttifaqı gender bərabərliyi naminə: birlikdə gender stereotiplərinə və gender əsaslı zorakılığa qarşı" proqramı çərçivəsində həyata keçirilir.

**Bu il 6 regionda keçiriləcək**

Layihə bu il İsmayıllı, Mingəçevir, Bərdə, Lənkəran, Sabirabad və Quba olmaqla, ümumilikdə, 6 regionu əhatə edir. Hər regionda 5 həftə ardıcıl davam edəcək atalar məktəblərindən ümumilikdə 150-dən çox gənc ata və ata olmağa hazırlaşan şəxs faydalanacaq.

Quba rayonunda layihənin əhatə etdiyi regionlardan seçilmiş mütəxəssislərin bilik, bacarıq və məlumatlılığının artırılması məqsədilə təlim sessiyaları təşkil edilib. Sessiyalar gender bərabərliyinin təmin olunmasında ataların rolunun əhəmiyyəti, gənc ata və ata olmağa hazırlaşan şəxslərin maarifləndirilməsi yolu ilə gender əsaslı cins seçimi və digər zərərli təcrübələrlə mübarizə, məsuliyyətli atalığın düzgün aşılanmasını təmin etmək üçün təlim metodologiyalarının hazırlanması kimi mövzular üzərində qurulub.

Atalar məktəblərində keçiriləcək seminarlar ailə planlanmasının sağlam cəmiyyətin formalaşdırılmasındakı rolu, sağlam ailə modeli və gender bərabərliyi prinsiplərinə əsaslanan dəyərlər, qız övladının dəyərinin təşviqi yolu ilə ailələrdə oğlan uşaqlarına verilən üstünlüyün qarşısının alınması, uşaqlara qulluq və qayğı, eləcə də digər məişət öhdəliklərinin kişi və qadın arasında bərabər bölgüsü, ataların icmaları daxilində şəbəkələşməsinin əhəmiyyəti kimi mövzuları əhatə edəcək.

*Yeganə BAYRAMOVA*

# Eks-prokuror canilərə azadlıq istəyir...

**İşğalçı Ermənistanın və bu ölkənin xaricdəki havadarlarının respublikamıza qarşı qərəzlə yoğrulmuş koordinasiyalı fəaliyyətlərini müxtəlif qarayaxma kampaniyaları üzərindən həyata keçirmələri artıq bir ənənə halını alıb. Belə qarayaxma kampaniyalarına bir qayda olaraq mühüm beynəlxalq tədbirlər ərəfəsində start verilir. Bununla ermənilər və onların xaricdəki Luis Okampo kimi havadarları daha çox "populyarlıq" və "beynəlxalq dəstək" qazanmağa cəhdlər göstərirlər. Təbii ki, belə cəhdlər uğursuzluqla nəticələnir. Çünki qaragüruhun təbliğatı reallığı əks etdirmir, cəfəng erməni iddiaları üzərində qurulur.**

## Okamponun COP29 ərəfəsində qaldırdığı hay-küy

Hər zaman dünyanın gələcəyi naminə xoş məramdan çıxış edən və qlobal həmrəyliyin gücləndirilməsinə davamlı töhfələr verən Azərbaycan cari ilin noyabrında COP29 konfransına ev sahibliyi edəcək. Hazırda çox aktual olan iqlim çağırışlarının müzakirə olunacağı bu konfrans BMT-nin ən mühüm tədbirlərindən biridir. Tədbirə çoxsaylı qonaqlar, o cümlədən də ayrı-ayrı ölkələrin dövlət və hökumət başçıları qatılacaqlar. Konfransın gündəliyi qlobal istiləşmənin fəsadları, kiçik ada dövlətlərinin mövcudluq problemi, maliyyələşmə və bu kimi ciddi məsələləri əhatə edir. Bir sözlə, artıq xeyli müddətdir ki, Bakının ev sahibliyi edəcəyi COP29 dünyanın diqqət mərkəzindədir və ölkəmiz bir növ beynəlxalq birliyin ümid yerinə çevrilib. Belə bir mühüm tədbir ərəfəsində xaricdə erməni lobbisinin formalaşdırdığı Azərbaycanofob qaragüruh yenidən fəallaşıb. Həmin garaguruhda yer alanlardan biri də Beynəlxalq Cinayət Məhkəməsinin sabiq baş prokuroru Luis Moreno Okampodur. Adı Qərbdə respublikamıza qarşı qərəzli davranışlar nümayiş etdirənlərin siyahısında ön sıralarda gələn Luis Moreno Okampo bu günlərdə yenidən fəallaşıb. O, aldığı sifarişlər əsasında dünya ermənilərinə noyabrda Azərbaycanda keçiriləcək COP29-a qarşı kampaniyaya başlamağa çağırış edib. "Bu ilin noyabrında Azərbaycanda keçiriləcək COP29 yaxınlaşdıqca Ermənistanda bəzi dairələr, erməni diasporu, Qərb ölkələrində Luis Okampo kimi irqçilər "Bakıda saxlanılan ermənilərin azad edilməsi" ilə bağlı hay-küy kampaniyasına başlamışlar", - deyə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda bildirilib.

## Ermənistana zəruri xatırlatmalar

Ermənistan işğalçı dövlətdir. Bu ölkə təxminən otuz il ərzində Azərbaycanın ərazilərinin 20 faizini öz nəzarəti altında saxlayıb, bir milyondan artıq soydaşımızı doğma ev-eşiyindən didərgin salıb. İşğal altında qalan ərazilərimizdə onilliklər boyunca ermənilər tərəfindən ağlasığmaz vandalizm əməlləri törədilib - şəhər və kəndlərimiz, tarixi mədəni-dini abidələrimiz dağıdılıb, təbii sərvətlərimiz talanıb, meşə fondumuz qırılıb, çaylarımız hədsiz dərəcədə çirkləndirilib. Erməni qaniçənləri tərəfindən Xocalı soyqırımı törədilib. Münaqişənin davam etdiyi illərdə Ermənistana məxsus silahlı qüvvələr bir qayda olaraq yaşayış məntəqələrini, dinc insanları atəşə tutub, ən ağlasığmaz yerlərdə çoxsaylı minalar basdırblar ki, bunlar da ağır müharibə cinayətləridir. Postmüharibə dövründə Azərbaycana yönəlik qərəzli açıqlamalarla çıxış edən Ermənistan öz cinayətlərini niyə unudur? Bəyanatda işğalçı ölkəyə zəruri xatırlatmalar edilib. Sənəddə oxuyuruq: "Özünü "tolerant" hesab edən Ermənistan cəmiyyəti, insan hüquqlarından, dəyərlərdən dəm vuran həmin dairələr, ilk növbədə, Ermənistan hakimiyyətinə 30 il ərzində Azərbaycan ərazilərini nə üçün işğal altında saxladıqları barədə sual verməli, işğala görə üzr istəməyi tələb etməli, bununla bağlı ictimai müzakirələrə başlamalı, 4000-ə qədər azərbaycanlı itkinin taleyinin müəyyənləşdirilməsinə çağırmalıdırlar.

Açıq internet resurslarında Ermənistan ordusunun xüsusilə Birinci Qarabağ müharibəsində mülki azərbaycanlılara qarşı törətdiyi vəhşilikləri əks etdirən çoxlu foto və videolar var. Erməni cəmiyyəti, ilk növbədə, öz hakimiyyətindən, "müstəqil məhkəmə sistemi"ndən həmin hərbçilərin, sahə komandirlərinin cəzalandırılmasını tələb etməli idi".



## Ermənilər milli müstəsnalıq hüququna malikdirlərmi?

Adı çoxsaylı korrupsiya qalmaqallarında hallanan sabiq baş prokuror Luis Moreno Okamponun Bakıda saxlanılan separatçılara azadlıq istəməsi, bu məqsədlə çirkin kampaniyaya başlamasının heç bir məntiqi izahı yoxdur. "Bütün bunların baş vermədiyi təqdirdə, "Bakıda saxlanılan ermənilərin azad edilməsi" çağırışları qeyri-səmimilikdən, cığallıqdan, milli müstəsnalığın təbliğindən, COP29 kimi mötəbər bir tədbirə ev sahibliyi edəcək Azərbaycana qarşı çirkin təbliğatdan başqa bir şey deyil", - deyə Qərbi Azərbaycan İcmasının Bəyanatında bildirilir.

Sabiq baş prokurorun erməni separatçılarının azadlığa buraxılması məqsədilə kampaniyaya başlaması onun bütövlükdə beynəlxalq hüquq sisteminə, yumşaq desək, arxa çevirməsi anlamına gəlir. Bakıda saxlanılan separatçıların siyahısına nəzər salaq:

Ruben Vardanyan - qondarma rejimin keçmiş "dövlət naziri",

Araik Arutyunyan - separaçı rejimin keçmiş "rəhbəri",

Bako Saakyan - separatçı rejimin keçmiş "rəhbəri",

Arkadi Qukasyan - separatçı rejimin keçmiş "rəhbəri",

David İşxanyan - uydurma parlamentin "sədri",

David Babayan - uydurma rejimin keçmiş "xarici işlər naziri",

Levon Mnatsakanyan - uydurma rejimin keçmiş "müdafiə naziri",

David Manukyan - uydurma rejimin "müdafiə nazirinin keçmiş müavini",

Vaqif Xaçaturyan- Xocalı qatili (68 yaşlı bu şəxs artıq məhkəmə qərarı ilə15 il müddətinə həbs edilib),

Rəşid Beqlaryan- Xocalı qatili (61 yaş),

Mədət Babayan- Xocalı qatili (71 yaş),

Vigen Eulcekçyan - (43 yaş).

Adları çəkilən separatçıların əməlləri hər kəsə bəllidir. Onlar Azərbaycana qarşı dövləti cinayət törədiblər. Bundan başqa onlardan bir çoxunun qanlı cinayətlərdə iştirakı təsdiqlənib. Separaçı rejimin keçmiş "rəhbəri" Araik Arutyunyan Azərbaycan şəhərlərinə raketlərdən atəş açmaq əmrini şəxsən verdiyini özü etiraf edib. Bütün bunlardan sonra separatçıların cəzalarını çəkmədən azadlığa çıxmaları mümkündürmü? Əsla! Zamanında separatçılar Bakıya çay içməyə gələcəklərini və yaxud tanklarını paytaxtımızadək sürəcəklərini bildirirdilər. İndi onlar tankları ilə birlikdə arzuladıqları ünvandadırlar. Fərq ondadır ki, tankları qənimət kimi, özləri isə cinayətkarlar kimi Bakıya gətiriliblər. Cinayətkarların yeri isə dəmir barmaqlıqların arxasıdır. İndi onlar layiq olduqları yerdə oturub layiq olduqları cəzalarını gözləyirlər. Okampoların ucuz kampaniyaları isə heç nəyə yaramır və heç nəyi dəyişməyəcək.

*Mübariz FEYİZLİ*

# Könhə ssenari təkrarlanır...

## ABŞ seçkilərində Rusiya izi?

**Amerika Birləşmiş Ştatlarını (ABŞ) son dərəcə isti payız gözləyir. Söhbət iqlim dəyişmələrindən, qlobal istiləşmənin ABŞ-a da nüfuz etməsindən deyil, noyabrda bu ölkədə keçiriləcək növbəti prezident seçkiləri ətrafında getdikcə artan ajiotajdan gedir. Bu ölkədə dövlət başçısı postu uğrunda mübarizə həmişə gərgin mübahisələr və bir sıra hallarda, necə deyərlər, haqsız rəqabət şəraitində baş tutub. Seçki marafonunda izlənilən proseslər onu deməyə əsas verir ki, növbəti seçkilər də bu cəhətdən istisnalıq təşkil etməyəcək.**

### “Xarici təbliğat ola bilər”

“Vaşinqton Rusiyanın amerikalı seçicilərə təsir etmək səylərini görür”. Belə bir sensasiya sayıla biləcək xəbərlə “Reuters” agentliyi çıxış edib. Agentlik ABŞ-nin Milli Kəşfiyyat İdarəsinin (MKİ) sözçüsünə istinadən bu məlumatı yaydığını bildirib. “ABŞ Rusiyanın amerikalı seçicilərin müəyyən demoqrafik qruplarına təsir göstərməyə çalışdığını görməyə başlayır,” - deyə MKİ-nin rəsmisi qeyd edib.

Belə məlumatlar həmçinin digər mənbələrdən də gəlməkdədir. “Kreml ABŞ-da prezidentlik postu uğrunda gedən mübarizə ilə bağlı dezinformasiya yaymaqla məsuliyyətsiz amerikalıların ictimai rəyinə fəal şəkildə təsir etməyə cəhd göstərir”. “Associated Press” agentliyi bildirib ki, ABŞ-nin Milli Kəşfiyyat İdarəsinin təmsilçiləri jurnalistlər üçün keçirilən brifinqdə belə açıqlama veriblər. Kəşfiyyat rəsmilərinin fikrincə, seçkilərə inamı sarsıtmaq üçün interneti Amerika demokratiyası ilə bağlı yalan iddialarla doldurmaq əzmi bəzi ölkələrdə dəyişməz olaraq qalır. “Amerika ictimaiyyəti bilməlidir ki, internetdə, xüsusən də sosial mediada oxuduqları istənilən kontent, hətta onun yerli vətəndaşdan və ya əslən ABŞ-dan çıxmış şəxsdən gəldiyi görünsə belə, xarici təbliğat ola bilər”, - deyə Milli Kəşfiyyat İdarəsinin direktorunun ofisinin təmsilçisi deyib.

Kəşfiyyat rəsmiləri bildiriblər ki, Kremlə bağlı qruplar getdikcə daha çox Rusiyadakı marketinq və kommunikasiya şirkətlərini rəqəmsal təbliğat işlərinin bir hissəsini autsorsinq (şirkətin qeyri-profil funksiyalarının digər təşkilata həvalə etmək) məqsədi ilə fəaliyyətə cəlb edirlər. Məhz iki belə şirkət ABŞ-nin mart ayında elan etdiyi yeni sanksiyaların hədəfinə çevrilib. ABŞ səlahiyyətliləri iki rus şirkətinin Kremlin dezinformasiyasını yaymaq üçün saxta veb-saytlar və sosial media profilləri yaratdığını iddia edirlər.

Rusiyanın ABŞ seçkilərinə müdaxiləsi mövzusu yeni deyil. Belə qənaət hasil olur ki, ABŞ-da köhnə ssenari təkrarlanır. Xatırladaq ki, ABŞ kəşfiyyat orqanları tərəfindən Rusiyanın 2016-cı il prezident seçkilərinə Demokratlar Partiyasından namizəd Hillari Klintonu məğlub edən Respublikaçılar Partiyasının namizədi Donald Trampın xeyrinə müdaxilə etdiyi barədə məlumatlar yayılmışdı. Bildirilirdi ki, müdaxilə metodlarına onlayn dezinformasiyanı yaymaq üçün kiberəməliyyatlardan istifadə edilib. Kəşfiyyat orqanlarının qənaətinə görə, qlobal əməliyyatları Rusiyanın bir sıra qurumları və şəxsləri, o cümlədən Federal Təhlükəsizlik Xidməti və digər təhlükəsizlik qurumları, habelə biznes xadimləri həyata keçiriblər. Mətbuata da sızdırılan məlumatlarda vurğulanırdı ki, ruslar nağd pul, kriptovalyuta, elektron pul köçürmələri və dəbdəbəli hədiyyələrlə ödəniş edirlər. Onlar maliyyələşdirmənin mənşəyini qorumaq üçün pulu müxtəlif qurumlar vasitəsilə köçürürlər. Bu qurumlara fondlar, beyin mərkəzləri, mütəşəkkil cinayət qrupları, siyasi məsləhətçilər və Rusiyanın dövlət müəssisələri daxildir. Hətta ödənişlərin Rusiya səfirliyinin hesabları və resursları vasitəsilə gizli şəkildə edildiyi barədə də ehtimallar irəli sürülürdü. Belə bir məqama xüsusi olaraq diqqət çəkilirdi ki, Asiya ölkələrindən birində Rusiya səfiri prezidentliyə namizədə milyonlarla dollar pul verib.

Paralel şəkildə transmilli mediada ictimai rəy formalaşdırmaq üçün sonradan feyk çıxan silsilə xəbərlər yayılırdı. Məsələn, “The New York Times” nəşri bu barədə informasiyalar yeni yayılan vaxt ABŞ kəşfiyyatına istinadən yazmışdı ki, Rusiya 2014-cü ildən bəri 20-dən çox ölkədə siyasi partiyalara, məmurlara və siyasətçilərə gizli şəkildə ən azı 300 milyon dollar xərcləyib və siyasətə və seçkilərə təsir göstərmək məqsədilə daha yüz milyonlarla pul köçürməyi planlaşdırır.




### Ehtimallarda həqiqət payı varmı?

ABŞ kəşfiyyatının D.Trampın ötən və indiki seçki marafonunda “Rusiya izi” axtarması mülahizələrə yol açır. Səsləndirilən ehtimalların və yaxud yayılan məlumatların mahiyyəti çox ciddidir. Burada əslində söhbət iki qarşı duran supergüc dövlətdən birinin digərinin daxili işlərinə müdaxiləsindən gedir. Bəs əli dünyanın dörd bir tərəfinə çatan ABŞ belə təsirləri nə üçün zamanındaca önləmir? Axı bu, milli təhlükəsizlik məsələsidir ki, Ağ Ev bunu özünün qırmızı xətti hesab edir.

ABŞ-nın gücünü və iddialarını nəzərə aldıqda hazırda başı uzun sürən müharibəyə qarışan Rusiyanın bu ölkədə əhəmiyyətinə və miqyasına görə bir nömrəli siyasi tədbir sayıla biləcək prezident seçkilərinə müdaxilə ehtimalları fantastika kimi görünə bilər. Axı indiyədək dünyaya aşılanıb ki, ABŞ-nin Mərkəzi Kəşfiyyat İdarəsi elə şəbəkələşmiş struktura malikdir ki, hətta iki qonşunun balkon söhbətlərini belə izləmək iqtidarındadır. Bu vahimə yaradan imic hara, Moskvanın Vaşinqton seçkilərinə müxadilə ehtimalları hara? Kifayət qədər təzadlı məqamdır.

Burada bəzi qənaətlər ifadə etmək mümkündür. Seçkilər yaxınlaşdıqca bu cür mülahizələrin gündəmə gətirilməsi demokratlar tərəfindən işlənmiş bir siyasi texnologiya ola bilər. Məlumdur ki, ilk debatdan sonra Donald Tramp seçki marafonunda təşəbbüsü ələ alıb. Xüsusilə də bir qədər bundan əvvəl törədilən terror aktı onun Amerika cəmiyyətində nüfuzunu əhəmiyyətli dərəcədə artırıb. Belə demək mümkündürsə, hazırda Donald Tramp məqsədinə çatmaq yolunda iri addımlarla irəliləyir və seçki triumfuna çox yaxındır. Onunla müqayisədə demokratların C.Baydeni əvəzləyən yeni namizədi Kamala Harrisin populyarlığı xeyli aşağıdır. O, ABŞ cəmiyyətində xarizması zəif olan, hətta vitse-prezidentlik vəzifəsində yeni təşəbbüslərdən çıxış etməyən, daha çox birinci şəxsin kölgəsində qalan, səlahiyyətlərini lazımi şəkildə yerinə yetirə bilməyən birisi kimi imic qazanıb. Seçki marafonunun başa çatmasınadək qalmış müddətdə onun və ətrafının bu imici dəyişəcəyinə inam azdır. Bu reallıq fonunda, belə görünür ki, rəqibin nüfuzunun aşağı salınması kimi ənənəvi texnologiya işə salınıb. Burada Rusiya kartından istifadə olunması da təsadüfi sayıla bilməz. Məlumdur ki, baş verən geosiyasi hadisələr, xüsusilə də Ukrayna ilə müharibə fonunda ABŞ ictimaiyyətində Rusiyaya əsasən mənfi münasibət yaranıb. Məhz bu məqam da Trampın rəqiblərinin işinə yarayır. Onlar cəmiyyətin həssas nöqtəsinə basmaqla seçki marafonunda üstün mövqeyə çıxmaq niyyətindədirlər. Seçkilərdə Rusiya izinin gündəmə gətirilməsi, hətta mümkün təsirlərin həqiqət kimi qələmə verilməsi, heç şübhəsiz ki, Mərkəzi Kəşfiyyat İdarəsinin, bütövlükdə ABŞ-nin nüfuzuna ağır zərbədir. Belə görünür ki, işə salınan siyasi texnologiyada strateji məqsədlər naminə bu uğursuzluğu həzm etmək nəzərə alınıb.

### Rusiya təkzib edir...

“ABŞ-dakı prezident seçkilərinə müdaxiləmiz barədə bəyanatlar absurddur”. “İnterfax”ın xəbərinə görə, bunu Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov deyib. O, seçki günü yaxınlaşdıqca analoji açıqlamaların intensivliyinin artacağını da istisna etməyib. D.Peskovun sözlərinə görə, ABŞ-da həm Rusiyanı, həm də Prezident Vladimir Putini siyasi mübarizənin önəmli faktoru hesab edirlər.

Bəhs olunan mövzuda Rusiya Təhlükəsizlik Şurası rəhbərinin müavini Dmitri Medvedev də danışıb. O, TASS-ın suallarını cavablandırarkən bildirib ki, ABŞ-də prezident seçkilərinin nəticəsi amerikalıların işidir, Rusiya bu prosesə qarışmır, həm də gələcəklə bağlı heç bir illüziyası yoxdur. Fikirlərinə davam edən D.Medvedev vurğulayıb: “Biz, şübhəsiz ki, bu ştatın daxili işlərinə qarışmayacağıq. Kim seçiləcəksə, o da seçiləcək, məsələ seçicilərindir. Baxmayaraq ki, qoca Baydenin intellektual qabiliyyətləri ilə bağlı ilkin məlumatlar çox illüziya yaratmır”.

***MÜBARİZ***

# Yadplanetlilərlə niyə əlaqə qurmalıyıq?

## Astrofiziklərin son qənaətləri

Təxminən 70 il bundan əvvəl italyan əsilli amerikalı asrtofizik, sonralar Nobel mükafatı laureatına layiq görülmüş Enriko Fermi bir gecə səmaya baxaraq belə bir sual verir: “Bəs onlar haradadırlar?”

Əlbəttə, Fermi yadplanetliləri nəzərdə tuturdu. Alim bu mövzunu üç həmkarı ilə birgə qəhvə masası arxasında müzakirə edirdi. Məlumdur ki, kainatda milyardlarla ulduz var. NASA ən son texnoloji vasitələrlə Günəş sisteminə yaxın bütün ulduzları izləyir. Hələlik qalaktikamızda Yer planetindən başqa inkişaf etmiş həyatın əlamətləri tapılmayıb. Lakin bizim indiyədək yaxın ulduzlarda həyat əlaməti aşkar etməməyimiz başqa ulduz sistemlərində, yaxud daha uzaq ulduzlarda hər hansı canlı orqanizmin mövcud olmaması demək deyil.

**Tanınmış astrofiziklər belə söyləyirlər.**

“Doğrudanmı “Homo sapiens” kainatda texnoloji baxımdan inkişaf etmiş yeganə sivilizasiyadır?” - deyə Enriko Fermi ağlabatan bir sual verir.

Dostları dərhal cavab verirlər ki, Yer unikal planetdir, çox güman, kainatda həyat üçün ideal şəraitə malik başqa bir planet yoxdur.

Ferminin dövründə kosmosu müşahidə etmək üçün ultra modern cihazlar yox idi. O vaxtdan bəri yeni teleskop növləri icad edilib. İndi neyroşəbəkələr vasitəsilə kosmos barəsində daha çox informasiya almaq mümkündür. Artıq hər kəsə məlumdur ki, fiziki və kimyəvi quruluşuna görə Yerə bənzər bir neçə planet var. Bundan əlavə, təkcə bizim qalaktikamızda bioloji həyatın mövcud ola biləcəyi milyonlarla, bəlkə də milyardlarla planet var.

“Yerdən kənarda sivilizasiya yoxdur”, “Yer unikal planetdir və yeganədir” üslubunda əsassız fərziyyələr artıq rədd edilir. Birincisi, bu kimi iddiaların elmi sübutu yoxdur. İkincisi, bu cür fərziyyələr elmi axtarışlara mane olur.

Beləliklə, Fermi paradoksunun həllinə dair alimlərin müxtəlif dövrlərdə irəli sürdükləri əsas fərziyyələri nəzərdən keçirək.



### Zoopark hipotezi

“Zoopark hipotezi” fərziyyəsi ilk dəfə 1930-cu illərdə rus alimi Konstantin Tsiolkovski tərəfindən irəli sürülüb.

Onun nəzəriyyəsi belədir: “Kainatda bizdən başqa ağıllı planetar varlıqların olmamasını necə əsaslandıra bilərsiniz? Cavab verirlər ki, əgər onlar olsaydılar, Yer kürəsini ziyarət edərdilər. Mən isə deyirəm: bəlkə də onlar Yeri ziyarət edəcəklər, amma bunun vaxtı hələ çatmayıb”.

Məşhur alimin fərziyyəsi 1973-cü ildə amerikalı astronom Con Ball tərəfindən nəzəriyyə kimi sistemləşdirilib. Bu nəzəriyyəyə görə, yerdənkənar sivilizasiyalar artıq bizim varlığımız barədə məlumatlıdır. Lakin onlar əlaqə qurmağa tələsmirlər. Üstəlik, onların texnologiyaları o qədər inkişaf edib ki, bizim kosmik axtarış sistemlərimizdə görünmürlər.

Yerdənkənar varlıqlar Yerdəki həyata müdaxilə etməməyi üstün tuturlar. Kobud çıxsa da, deməliyik ki, biz zooparkda heyvanları müşahidə etdiyimiz kimi onlar da bizim Yerdəki yaşamımızı müşahidə etməklə kifayətlənirlər. Onlara lazım olan inkişaf səviyyəsinə çatdıqda bizimlə əlaqə saxlayacaqlar. Hələlik biz belə bir təmas üçün lazımi qədər gəlişməmişik.

Yeri gəlmişkən, populyar “Zoopark fərziyyəsi” elmi-fantastik ədəbiyyatın və kinonun sevimli mövzularındandır.

### Okeanların sirri

Yadplanetlilərlə bağlı ikinci məşhur nəzəriyyə onların su olan planetlərdə mövcud olma ehtimalına əsaslanır.

Kainatda maye suyun ola biləcəyi bir çox planet var. Buzlaqlarla örtülmüş planetləri bir kənara qoyaq, Günəş sisteminə daxil planetlərin peyklərində maye sudan ibarət okeanlara intensiv rast gəlinir. Çox güman, suyun mövcudluğu qalaktikamızda adi bir hadisədir.

NASA fiziki Alan Stern əmindir ki, sulu planetlərdə həyatın çiçəklənməsi tamamilə mümkündür. Baxmayaraq ki, ilk baxışdan bu planetlər canlı həyat üçün əlverişsiz görünə bilər. Məsələn, belə planetlərdə zəhərli atmosfer və ya kosmik radiasiyanın ötürülməsinə imkan verən maqnit sahəsi, yaxud yandırıcı şüalar ola bilər. Bununla belə, buz və ya torpaq qatının altında hər hansı həyatın mövcudluğu da gözləniləndir. Ən maraqlı yanaşma isə odur ki, həmin canlılar nə qədər ağıllı olsalar da, üzə - kosmosa çıxma imkanına malik deyillər. Həm də o səbəbdən ki, onlar atmosfer və kosmos haqqında ümumiyyətlə heç nə bilmirlər. Bizsə nə vaxtsa teleskop vasitəsilə planetlərinə baxmaqla onları aşkar edə bilməyəcəyik.

### Kosmik həbsxanalar

Ekzoplanetlər arasında “Super-Yer” adlanan çoxlu sayda göy cismi var. Bu, ümumi kütləsi Yerin kütləsindən çox, qaz nəhənglərinin kütləsindən isə xeyli dərəcədə az olan planetlər sinfidir. “Super-Yer”lər bizim Yerdən 5-10 dəfə böyük olur. Bu planetlərdə maye suyun mövcudluğu üçün uyğun şərtlər var. Ancaq belə bir planetə qonmaq çox çətindir. Məsələn, kütləsi Yerin kütləsindən 10 qat ağır olan bir planetin hərəkət sürəti Yerdən təxminən 2,4 dəfə artıq olacaq. Bu halda planetin cazibə qüvvəsini dəf etmək də çətinləşir, odur ki, onun sakinlərinin kosmosa raket buraxması da, demək olar, mümkün olmayan bir təşəbbüsdür.

### Onlar robotdur?

İnsan sivilizasiyası böyük sürətlə inkişafdadır. Alimlərin radionu icad etdikləri bir əsrdən bir az çoxdur. Radionun ixtirasından 50 il sonra - 1945-ci ildə ilk kompüter ərsəyə gətirilib. Həmin kompüter lent və plyonka ilə işləyirdi. İndi isə milyonlarla qat daha təkmil, daha məhsuldar mobil qurğularımız var. Artıq dünyamızı süni intellektlə bölüşməyə hazırlaşırıq. Ola bilsin, oxşar aqibət bizdən əvvəlki sivilizasiyaların da başına gəlib. Robot orqanizmlər başqa planetlərə köçmüş ola bilərlər. Həm də onların toksik atmosfer, yüksək temperatur və maye su ilə bağlı bizim kimi ciddi məhdudiyyətləri yoxdur.

Futuroloq Set Şostakın fikrincə, belə robotlar nəhəng enerji toplanan yerləri, məsələn, qalaktikaların nüvəsini seçə bilərlər: “Ola bilsin, biz onları artıq kəşf eləmişik, amma fərqinə varmamışıq”.

Məsələ burasındadır ki, “yadplanetli” dedikdə ilk baxışda humanoid xüsusiyyətlərə malik canlı nəzərdə tutulur. Lakin kosmik canlının humanoid xüsusiyyətlərə sahib olma ehtimalı, yumşaq desək, sıfıra bərabərdir. Təkamül təbii qəzalar zənciridir. Ona görə də təkamülün bütün planetlərdə qolları, ayaqları və başı olan insanabənzər canlıların meydana çıxmasına səbəb olacağını təsəvvür etmək o qədər də ağlabatan deyil. Bizim beynimiz bu dünyada qazandığımız təcrübələrlə məhdudlaşır. Ona görə də kainatda nə cür canlıların mövcud ola biləcəyini təsəvvürümüzə gətirə bilmirik.

### Sivilizasiyamızın sonu

Yadplanetlilər qlobal fəlakətlərə - ölümcül iqlim dəyişikliyi və ya nüvə müharibələrinə səbəb ola bilərlər. Roçester Universitetinin astrofizika professoru Adam Frank yerdənkənar sivilizasiyaların inkişafını, onların yüksəlişini və süqutunu proqnozlaşdıran bir sıra riyazi modellərin müəllifidir. Alimin nəzəriyyəsinə görə, bizim onlarla görüşümüzə qədər onların sivilizasiyası öz süqutunu sürətlə yaşayır və məhv olur.

Bizim sivilizasiya təbii şərait baxımından planetimizin məhsuldar dövrünə düşüb. Lakin hesablamalara görə, təxminən 500 milyon ildən sonra Yerdə canlı həyat başa çatacaq.

Hələ buraya kosmik miqyasda təsadüfləri, proqnozlaşdırılması çətin olan hadisələri, meteorit düşməsini, yaxınlıqda supernova partlayışlarını və s. əlavə etmirik. Bilirik ki, canlı həyat yavaş-yavaş təkamülə uğrayır. Təsəvvür edin, təkhüceyrəli həyatdan çoxhüceyrəli həyata sadə keçid bir milyard yarım il çəkib! Bir molekulu hərəkətə gətirmək üçün tələb olunan zaman minimum bir neçə yüz milyon ildir. Bəşəriyyət üçünsə bu müddət 500 milyon ilə bərabərdir. Hesablamalara görə, milyon illər sonra Günəşdəki partlayışlar səbəbindən Yer kürəsində həyat qeyri-mümkün olacaq.

### “Qara enerji” hər şeyi udacaq

Kainat sürətlə genişlənir. Qara dəliklər ulduzları udur. Beləliklə, əgər uzaq kosmik sivilizasiyalarda superluminal sürətlə (bizim bildiyimiz fizika qanunları ilə yox) səyahət texnologiyası olmasa, biz onları, onlar da bizi görə bilməyəcəklər. Bəlkə də bizdən 10 milyard işıq ili uzaqda çox güclü inkişaf etmiş sivilizasiya var. Ancaq onunla qarşılaşma ehtimalımız, demək olar, sıfırdır. Bu, təkcə yerdənkənar canlılara yox, uzaq kosmik obyektlərə də aiddir.

Kainatı nə qədər az tədqiq etsək, gələcək üçün imkanlarımız da bir o qədər azalacaq. Bəzi şanslar isə Yer sakinləri üçün həmişəlik itirilə bilər. Fermi Milli Laboratoriyasının astrofiziki Dan Huper öz araşdırmasında yazır: “Ulduzlar sönür... Onları görmək çətin, həm də zaman keçdikcə tamamilə əlçatmaz olur. Bu da o deməkdir ki, yadplanetlilərlə təmas və onlarla görüşmək üçün bəlli bir müddət qarşısındayıq. “Qara enerji”dən bir addım öndə olmaq üçün yadplanetlilərin hamısı “uçub” yox olmazdan əvvəl biz sivilizasiyamızı qalaktikada mümkün qədər sürətlə genişləndirmək məcburiyyətindəyik”.



*Murad Köhnəqala*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




*İdman*

## Beynəlxalq Olimpiya Komitəsi Azərbaycandan üzr istəyib



International Olympic Committee
NOC Relations Department

Farid Gayibov
Minister of Youth and Sports
Republic of Azerbaijan
Chingiz Huseynzade
Vice-President National Olympic Committee Republic of Azerbaijan
Baku, Azerbaijan

Lausanne, 02 August 2024

Dear Minister Gayibov, Dear Mr. Huseynzade,

Thank you for your letter of 27 July 2024, addressed to the IOC President, Mr Thomas Bach.

We would like to take this opportunity to convey our most sincere apologies for the words used by the reporters of France2 television during the retransmission of the Paris 2024 Olympic Games Opening Ceremony. Such words are not in line with the principles and the values that the International Olympic Committee promotes through sport and through the Olympic Games. Consequently, we have been in contact with all the responsible parties to remind them about our principles and working protocols.

Please rest assured that clear indications have been delivered to avoid any future references using similar terms.

We are most grateful for your kind understanding, and we wish you all the best for successful results for your athletes during the Paris 2024 Olympic Games.

Yours sincerely,

James Macleod
Director of NOC Relations

Maison Olympique, 1007 Lausanne, Switzerland | Tel. +41 21 621 6111 | Fax +41 21 621 6216 | www.IOC.org

Beynəlxalq Olimpiya Komitəsi (BOK) “Paris-2024” Yay Olimpiya Oyunlarının açılış mərasiminin şərhi zamanı “France2” telekanalının müxbirinin işlətdiyi ifadələrə görə Azərbaycandan üzr istəyib.

Azərbaycan Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, məktubda qeyd edilib ki, bu cür sözlər Beynəlxalq Olimpiya Komitəsinin idman və Olimpiya Oyunları vasitəsilə təbliğ etdiyi prinsip və dəyərlərə ziddir. Buna görə də bu məsələyə cavabdeh qurum və şəxslərlə əlaqə saxlanılıb və gələcəkdə belə hallara yol verilməməsi üçün BOK-un iş prinsipi və protokolları xatırladılıb.

“Paris-2024” Yay Olimpiya Oyunlarının yayımçısı olan “France 2” telekanalının ölkəmizə qarşı tutduğu qərəzli mövqeyə və bu hadisədən Beynəlxalq Olimpiya Komitəsinin Azərbaycana üzrxahlıq məktubunu nəzərə alaraq, Fransa hökumətinin də Azərbaycandan rəsmi üzr istəməsini gözləyirik”, - deyə Gənclər və İdman Nazirliyindən bildirilib.

## Azərbaycanın iki şahmatçısı dünya çempionatında iştirak edəcək




Azərbaycanın iki şahmatçı bu gün Özbəkistanın paytaxtı Daşkənddə yeniyetmələr və gənclər arasında keçiriləcək dünya çempionatında iştirak edəcək.

Azərbaycan Şahmat Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, rapid və blits üzrə dünya birinciliyinə start veriləcək yarışda Xəzər Babazadə və Ayan Allahverdiyeva 20 yaşa qədər şahmatçıların kateqoriyasında mübarizə aparacaq.

Qeyd edək ki, İsveçrə sistemi ilə təşkil edilən yarış 9 turdan ibarət olacaq.

## Boksçularımız Avropa birinciliyində iştirak edəcəklər




Avqustun 3-də Bosniya və Herseqovinanın Banya Luka şəhərində məktəbli qız və oğlan boksçular arasında Avropa birinciliyi start götürəcək.

Azərbaycan Boks Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, 8 gün davam edəcək yarışda Azərbaycan milli komandaları da mübarizə aparacaq.

Yığmamız oğlanların yarışında Sahib Baxışlı (40 kiloqram), Əli Abaslı (42 kiloqram), Ramiz Ağadadaşov (44 kiloqram), Oğuz İbrahimli (46 kiloqram), Tunar Mehtiyev (48 kiloqram), Yusif Həsənli (50 kiloqram), İbrahim Bədəlli (52 kiloqram), Adəm Aslanov (54 kiloqram), Anzor İsrafilov (57 kiloqram), Nurlan Müseyibli (60 kiloqram), Şükar Əliyev (63 kiloqram), Şahin Layıcov (66 kiloqram), İsmayıl Məmmədov (70 kiloqram), Mehran Rəsulov (75 kiloqram), Yusif Ağakişiyev (80 kiloqram) və Uğur Həsənovla (90 kiloqram) təmsil olunacaq.

Qızların mübarizəsində Aysel Fərəcova (40 kiloqram), Ayşən Miriyeva (42 kiloqram), Saraxanım Səmədova (44 kiloqram), Sima İsmayılova (46 kiloqram), Cəmilə Muradlı (48 kiloqram), Kəmalə Həsənova (51 kiloqram), Səma Abbasova (60 kiloqram) və Fidan Bəkərova (64 kiloqram) rinqə çıxacaqlar.

Birincilikdə Qalib Əbiyev isə hakimlər sırasında yer alacaq.


## Elan

“İpək Yolu Sığorta” ASC (VÖEN 9900002671) öz daimi fəaliyyət ünvanının dəyişdiyini elan edir. Cəmiyyətin yeni ünvanı: Bakı şəhəri AZ 1044, Xəzər rayonu, Binə qəsəbəsi, Heydər Əliyev prospekti 573, “ASG Business Aviation” MMC-nin inzibatı binası, 4-cü mərtəbə


## Azərbaycan məktəbliləri Avropa Qızlar İnformatika Olimpiadasında medal qazandılar




**Olimpiadaya Azercell-in dəstəyi ilə hazırlaşan məktəbli qızlar 2 bürünc medal və 1 həvəsləndirici mükafatla təltif ediliblər**

21-27 iyul tarixlərində Niderlandın Veldhoven şəhərində keçirilən 4-cü Beynəlxalq Avropa Qızlar İnformatika Olimpiadasında Azərbaycanı təmsil edən məktəbli qızlar vətənə mükafatlarla geri dönüblər. 56 ölkədən 194 məktəbli qızın qatıldığı beynəlxalq müsabiqədə məktəblilərimiz 2 bürünc medal və 1 həvəsləndirici mükafat qazanıblar.

Belə ki, Bakı şəhəri, Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 9-cu sinif şagirdi Rahidil Bayramlı və Bakı Modern Təhsil Kompleksinin 11-ci sinif şagirdi Nigar Hacıyeva bürünc medal, Gəncə şəhəri, Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 10-cu sinif şagirdi Ayan Kərimova isə həvəsləndirici mükafat qazanıb.

Qeyd edək ki, 2017-ci ildən etibarən Azərbaycan məktəblilərinin informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq prosesi “Azercell Telekom” MMC-nin Elm və Təhsil Nazirliyi ilə əməkdaşlığı çərçivəsində həyata keçirilir. Bu müddət ərzində Azərbaycanın bölgələrini və paytaxt məktəblərini təmsil edən şagirdlər fərqli yaş qrupları üzrə müxtəlif miqyaslı proqramlaşdırma müsabiqələrində, ümumilikdə, ölkəmizi uğurla təmsil edərək 72 medal əldə ediblər.

Azercell qalib qızları ürəkdən təbrik edir, uğurlarının davamlı olmasını arzu edir.

# Təhlükəsizlik konsepsiyamızın mühüm qolu...

Hər bir ölkənin müdafiə strategiyasında hərbi dəniz qüvvələrinin əhəmiyyəti böyükdür. Milli təhlükəsizlik konsepsiyamızda kənar təhdidlərə effektiv müqaviməti həyata keçirən güclü hərbi donanmamız var. Bu gün hərbi dənizçilərimiz suverenliyimizə qarşı yarana biləcək təhlükənin qarşısını almağa qadirdir. Bir sözlə onlar bu istiqamətdə özlərini inkişaf etdirməkdədirlər.

1918-ci ildə yaradılan Azərbaycan Hərbi Dəniz Donanmasına “Qars”, “Ərdahan” qayıqları, “Astrabad”, “Göytəpə” poçt gəmiləri, “Araz” hidroqrafik gəmisi və “Bayıl” liman daşıyıcı gəmisi daxil idi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra donanma Sovet Azərbaycanının Qırmızı Donanması adlandırılmış, 1920-ci ilin yayında isə Xəzər Dəniz Qüvvələrinin tərkibinə daxil edilmişdi.

Azərbaycan milli hərbi dəniz qüvvələrinin yeni tarixi isə 1992-ci ildə keçmiş SSRİ Hərbi Dəniz Donanmasının Qırmızı Bayraqlı Xəzər Donanmasının bir hissəsinin Azərbaycana verilməsi ilə başlayıb. Bu sahədə peşəkar milli kadrların müstəqil Azərbaycana gətirilməsində, yeni kadrlar yetişdirilməsində, donanmanın maddi-texniki bazasının möhkəmləndirilməsində ümummilli lider Heydər Əliyevin böyük xidmətləri olub.

Yeri gəlmişkən, avqustun 5-i Azərbaycan Hərbi Dəniz Donanması Günüdür. Bu barədə Heydər Əliyev 1996-cı ildə Fərman imzalayıb.

Azərbaycanın hərbi donanması 2000-ci ildən geniş hərbi təlimlərdə iştirak edir. Bu təlimlər hərbçilərimizin peşəkarlığını artırmaqla yanaşı, donanmanın gücünü bütün dünyaya nümayiş etdirir. Azərbaycanın hərbi dəniz donanması hazırda ən müasir hərbi texnika ilə təchiz olunub.

Dövlət başçısının rəhbərliyi altında Azərbaycan Ordusunun, o cümlədən Hərbi Dəniz Qüvvələrinin daha da gücləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, gündən-günə qüdrətlənən Azərbaycan Ordusu və onun Hərbi Dəniz Qüvvələri ölkəmizə qarşı yönələn hər hansı bir həmləni dəf etməyə qadirdir.



Hərbi Dəniz Qüvvələrimizin gücünə İkinci Qarabağ müharibəsində də şahid olduq. Vətən müharibəsi dövründə Dəniz Xüsusi Təyinatlılarının qəhrəmanlıqlarına bütün dünya şahidlik etdi. Belə ki, 27 sentyabr 2020-ci ildə əks-hücum əməliyyatı ilə başlayan döyüşlər zamanı Hərbi Dəniz Qüvvələrinin Xüsusi Təyinatlıları döyüşlərdə fədakarlıq, əzmkarlıq və qəhrəmanlıq göstərdilər. Zəngilan, Cəbrayıl, Füzuli, Qubadlı rayonlarının və Şuşa şəhərinin azad olunmasında fəal iştirak etdilər. 2020-ci il oktyabrın 25-də ölkə başçısına Qubadlı rayonunun işğaldan azad olunması barədə videogörüntü ilə məruzə edərək xalqı qürurlandıran məhz Hərbi Dəniz Qüvvələrinin Xüsusi Təyinatlılarının komandiri idi...

***Yeganə BAYRAMOVA***

# Qırmızı-sarı-yaşıl - 3 rəngli qurğu...



Gün ərzində dəfələrlə rastlaşdığımız işıqforlar yol qaydalarının tənzimlənməsində böyük rola malikdir. Ömrümüz çox zaman yollarda keçir. 3 işıqlı bu vasitənin sayəsində baş verə biləcək yol qəzalarının qarşısı alınır, qarışıqlıq yaranmadan avtomobillər öz istiqamətləri üzrə rahat hərəkət edirlər. Ancaq bəzi vaxtlarda bu yollar bizi mənzilə çatdırmır. Məcazi mənada desək, yolumuzu qırmızı işıq kəsir...

**İşıqfor sadəcə, məhdudiyyət deyil...**

Qırmızı işıqdan söz düşmüşkən, 5 avqustun Beynəlxalq İşıqfor Günü kimi tarixə düşməsindən artıq 110 il ötür. Həmin gün 1914-cü ildə ABŞ-ın Klivlend şəhərində ilk elektrik işıqfor quraşdırılıb. Onun da iki - qırmızı və yaşıl işıq rəngli işıqları olub. Sarı rəngi isə polisin xəbərdaredici fiti əvəz edirdi.

İllər keçdikcə üçrəngli işıqforlar daim inkişaf edərək daha mürəkkəb, rahat və ağıllı olur. Bu gün təkcə avtomobillər üçün deyil, həm də piyadalar, tramvaylar, velosipedçilər və hətta atlar üçün işıqforlar var. Qırmızı siqnalda sağa dönməyə imkan verən oxlar, eləcə də səs siqnalları var ki, görmə qabiliyyəti zəif olan insanlar yolun hərəkət hissəsini təhlükəsiz keçə bilsinlər.

Ola bilsin ki, kimsə işıqforların sadəcə bir məhdudiyyət olduğunu fikirləşir. Amma düşünsək ki, onlar günümüzdə nə qədər insanın həyatını xilas edib, onda yanlarından təşəkkür etməmiş keçmərik. Beynəlxalq İşıqfor Gününü fürsət bilib mövzunu qabartmaqda məqsədimiz son zamanlar yol hərəkəti qaydalarına əməl edilməməsi və nəticədə nəqliyyat hadisələrinin artmasıdır. Etiraf edək ki, xoşagəlməz hadisələrin yaşanmasında əsas səbəblərdən biri sürücülərin və piyadaların tələskənliyidir.

## Çoxsaylı insanın həyatını xilas edib!

Bu gün bütün dünya ölkələrindəki yol polisi əməkdaşlarının əsas diqqət etdiyi yer piyada keçidləridir. Ölkəmizdə nizamlanan və nizamlanmayan piyada keçidləri var. Nizamlanan piyada keçidlərində hərəkətin nizamlanması işıqfor vasitəsilə həyata keçirilir. Piyadalar bəzən işıqfora fikir vermədən, piyada keçidi olmayan yerlərdən və etinasızca mobil telefon və yaxud qulaqcıqlarla yolu keçmək istəyərkən yol-nəqliyyat hadisələri qeydə alınır.

Təəssüf ki, bunun üçün maarifləndirici tədbirlər görülsə də, qaydalara əməl etməyən, diqqətsiz və məsuliyyətsiz sürücülər, həmçinin piyadalar yenə var. Hər bir ölkədə yol-hərəkəti qayalarının pozulmasına görə, istər piyada, istərsə də sürücülər üçün müvafiq məbləğdə cərimələr tətbiq olunur. Lakin məqsəd piyada və sürücüləri cərimə ilə qorxutmaq yox, yol-nəqliyyat hadisələrinin qarşısını almaqdır.

**İşıqforun tələbi nədir?**

İşıqforun yaşıl işığı yanan zaman digər istiqamətdən gələn nəqliyyat vasitələrinin, həmçinin piyadaların hərəkətini başa çatdırmasına şərait yaradılması öz əksini tapıb. Ancaq o demək deyil ki, yaşıl işıq yandı, sürücü dərhal hərəkətə başlaya bilər. Bəzən sürücülər işıqforun yaşıl və yaxud qırmızı işığının sönməsinə 1-2 saniyə qalmış sürəti azaltmaq yerinə bir az da artırırlar ki, yolayrıcını tez keçsinlər. Bütün bu tələskənliklər isə bədbəxt hadisələrinin baş verməsinə gətirib çıxarır.

Adətən piyadaların küçə və yollarda hərəkətinə qadağa qoymaq mümkün olmadığı üçün bütün məsuliyyət sürücülərin üzərinə düşür. Bunun üçün də sürücülər daha təmkinli, piyadalarla münasibətdə daha diqqətli olmalı, qarşısına qəfil çıxan piyada ilə məsafəsini nizamlamağı bacarmalıdır.

Lakin bu, piyadaların məsuliyyətinin az olması mənasına gəlməməlidir. Yol hərəkəti qaydalarının tənzimlənməsində sürücülər qədər ən az piyadaların da diqqəti və məsuliyyəti vacibdir.

***Yeganə BAYRAMOVA***


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4574
Sifariş: 1737
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova